DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 07 (324) / İYUL 2018-Cİ İL





İyulun 3-də və iyulun 10-da Gəncə şəhərində törədilmiş qanlı cinayətlər dövlətçiliyimizə qarşı törədilmiş cinayətlərdir...

Bu cinayətləri törədən terrorçu qruplaşma Azərbaycanda sabitliyi pozmaq istəyir. Bu cinayətlərin əsas məqsədi bundan ibarətdir. Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilmişdir. Bu terror aktları dini şüarlar altında törədilmişdir. Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Bildiyiniz kimi, ötən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur, İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı şəhəridir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülmüşdür. Müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Yəni, bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Bu cinayətkarlar müsəlman deyillər və bu cinayətlər cavabsız qalmır. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənali olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi...

Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə təxribatlar törədilmişdir, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz.

Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq.

Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir. Dünya miqyasında Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb yaradır, qurur. Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən müasir dövlətdir. Gündən-günə bizim gücümüz artır, gündən-günə bizim potensialımız güclənir - həm siyasi sahədə, diplomatik sahədə, iqtisadi sahədə, hərbi quruculuq sahəsində, döyüş meydanlarında, idman meydançalarında, sosial sahədə. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci bir ölkə olmamışdır...

Azərbaycan xalqı isə tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

**Prezident İlham Əliyev,**
*Respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasındakı çıxışından*

13 iyul 2018-ci il.

## DÖVLƏT KOMİTƏSİNDƏ BU İLİN 6 AYININ YEKUNLARINA HƏSR OLUNMUŞ KOLLEGİYA İCLASI KEÇİRİLİB



Səh. 2

## GƏNCƏDƏ TERROR AKTLARININ DİNİ ŞÜARLAR ALTINDA TÖRƏDİLMƏSİ İSLAM DİNİNƏ QARŞI ƏN BÖYÜK CİNAYƏTDİR



Səh. 3

## "DİN ADI ALTINDA TƏXRİBATLAR EDİR, MİLLİ MARAQLARIMIZA ZƏRBƏ VURMAQ İSTƏYİRLƏR"



Səh. 7

## "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ"



Səh. 8

# DÖVLƏT KOMİTƏSİNDƏ BU İLİN 6 AYININ YEKUNLARINA HƏSR OLUNMUŞ KOLLEGİYA İCLASI KEÇİRİLİB

İyulun 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQDİK) cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı toplantını giriş sözü ilə açaraq Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasa diqqəti cəlb edib. Ötən 6 ay ərzində ölkəmizdə qarşıda duran bütün vəzifələrin uğurla icra edildiyini deyən Dövlət Komitəsinin sədri Azərbaycanın iqtisadi və beynəlxalq siyasət sahələrində naliyyətlər əldə etdiyini vur- ğulayıb.

Cari ilin dövlət başçısı tərəfindən ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini diqqətə çatdıran Mübariz Qurbanlı bu münasibətlə DQDİK tərəfindən dini icmaların üzvləri arasında məqalə müsabiqəsi və tədbirlərin keçirildiyini, eləcə də "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda kitabın nəşr edildiyini bildirib.

Mübariz Qurbanlı hesabat dövründə dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinə nəzarətin gücləndirilməsi, radikal cərəyan və təriqətlərin fəaliyyətinin aşkarlanması, dini obyektlərin tikintisi barədə məlumatların yenilənməsi, dini təhsil müəssisələrinin fəaliyyətinin araşdırılması və əlamətdar dini mərasimlərlə bağlı tədbirlər görüldüyünü bildirib. Qeyd edib ki, din pərdəsi altında milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mümkün vasitələrlə mübarizə davam etdirilib, bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi, hüquq-mühafizə orqanları, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və digər qurumlarla birlikdə maarifləndirici və inzibati tədbirlər həyata keçirilib.

Komitə sədri milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək dəstək göstərən Prezident İlham Əliyevin müvafiq Fərman və Sərəncamı ilə DQDİK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını Dövlət Komitəsinə olan yüksək etimadın göstəricisi kimi dəyərləndirib. Sözügedən qurumların ölkəmizdə yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətə başladıqlarını bildirib.

Çıxışında 3 və 10 iyul tarixlərində Gəncədə baş verən terror hadisələrinə də toxunan Mübariz Qurbanlı bu cinayət əməllərinin Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, ölkəmizin müstəqilliyinə zərbə vurmaq niyyəti ilə törədildiyini bildirib. Xaricdən idarə edilən din pərdəsi altında fəaliyyət göstərən radikal qrupların cəmiyyəti iğtişaşlara təhrik etmə və dövlətə qarşı terror əməllərinə lazımi hüquqi qiymətin veriləcəyini bildirib.

Daha sonra Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov hesabat məruzəsi ilə çıxış edib. Sədr müavini Komitə tərəfindən respublikada dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək istiqamətində görülən işlər barədə danışıb.

Gündüz İsmayılov hesabat dövründə dini qurumların dövlət qeydiyyatına alınması ilə bağlı 60 müraciətin (57 İslam, 3 qeyri-islam təmayüllü) daxil olduğu, 7 dini qurumun sənədlərinin qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığı, ümumilikdə 16 dini icmanın (13 İslam, 3 qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alındığı diqqətə çatdırıb.

Cari ildə Dövlət Komitəsi tərəfindən Ramazan ayı ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər barədə də danışan sədr müavini ay boyunca dini durumun nəzarətdə saxlanıldığını, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlərin aparıldığını, bütün dini icmaların QMİ-nin rəsmi dini təqviminə uyğun fəaliyyət göstərməsinin mütəmadi diqqət mərkəzində saxlanıldığını deyib. Qeyd edib ki, 2018-ci ildə Ramazan ayı ölkəmizdə mənəvi dəyərlərimizə uyğun formada keçirilib, dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib.

G.İsmayılov ölkədə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması sahəsində işin davam etdirildiyini, idxalla bağlı 2018-ci ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olan müraciətlər əsasında 483 adda dini məzmunlu ədəbiyyatdan dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 19 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısının alındığını bildirib. Əlavə edib ki, ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 104 adda dini ədəbiyyatın 22-sinin çapı məqsədəuyğun sayılmayıb. Hüquq mühafizə orqanları tərəfindən Dövlət Komitəsinə göndərilmiş 224 adda dini təyinatlı ədəbiyyat və məlumat materiallarından 56-sının zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyən edilib.

Sədr müavini Dövlət Komitəsinin ötən müddət ərzində hüquq mühafizə orqanları ilə birgə qeyri-ənənəvi dini cərəyan mənsublarının qanunsuz fəaliyyətlərinə, eləcə də ixtisaslaşmış satış məntəqələrindən kənarda dini ədəbiyyat nümunələrinin satışının həyata keçirilməsinə qarşı inzibati tədbirlərinin intensiv şəkildə davam etdirdiyini deyib. Bildirib ki, respublikanın müxtəlif rayonlarında İnzibati Xətalar Məcəlləsinə əsasən ümumilikdə 45 nəfər barədə protokol tərtib edilərək aidiyyəti məhkəmələrə göndərilib.

Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində həyata keçirdiyi işlər barədə danışan Gündüz İsmayılov bu istiqamətdə dini icmaları, yerli icra hakimiyyətlərini, orta və ali təhsil ocaqlarını, cəzaçəkmə müəssisələrini, müxtəlif peşə sahələrini, eləcə də dini təhsil müəssisələrini əhatə edən, ümumilikdə 300-dən artıq tədbirin baş tutduğunu bildirib.

Daha sonra məruzəsi dinlənilən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən söz açıb. Diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin 27 mart 2018-ci il tarixli Sərəncamı ilə Fonda ayrılan vəsait hesabına ölkəmizdə mənəvi dəyərləri təbliğ edən şəxslər qismində QMİ tərəfindən rəsmi olaraq təyinat almış, ümumi sayı 1068 nəfər olan imam, imam müavini və mütəvəllilərə maddi dəstək göstərilir. Mənəvi dəyərləri təbliğ etmək məqsədilə Fond tərəfindən Ramazan ayında bir sıra şəhər və rayonlarımızda Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin ailə üzvlərinin və müharibə veteranlarının iştirakı ilə 13 iftar süfrəsi təşkil olunub. Bununla yanaşı, Ramazan bayramı ərəfəsində Fond tərəfindən Azərbaycanın müxtəlif regionlarından ümumilikdə 66 şəhid ailəsinə ərzaq yardımı edilib. Fondun tərkibində Mənəvi Dəyərlərin Təbliği üzrə Məşvərətçi Komitənin yaradıldığını bildirən icraçı direktor mənəvi dəyərlərin və Azərbaycançılıq məfkurəsinin təbliği ilə bağlı maarifləndirici tədbirlərin, müxtəlif fond və mərkəzlərlə birgə seminar, konfrans və xeyriyyəçilik fəaliyyətnin təşkili, kitab nəşri, eyni zamanda mənəvi dəyərlərlə bağlı televiziya kanallarında və radiolarda veriliş və sosial çarxların verilməsi istiqamətində işlərin davam etdirildiyini deyib.

DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev çıxışında Gəncə şəhərində dini durumun tam sabit olduğunu, vətəndaşlara dini ayinləri sərbəst şəkildə icra etmələri üçün lazımi şərait yaradıldığını deyib. Bildirib ki, dindarlar dövlət tərəfindən onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirir və dövlətçilik prinsiplərinə həmişə olduğu kimi indi də sədaqət nümayiş etdirirlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiya- sının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək ölkəmizin konfessiyalar və məzhəblərarası münasibətlər baxımından nümunəvi mühitə malik olduğunu bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün geniş imkanların yaradılması hakimiyyətin milli-mənəvi dəyərlərimizə olan yüksək münasibətinin bariz nümunəsidir. E. Nəcəfov bu sabitliyi gözü götürməyən, onu pozmağa çalışan ölkə xaricindən qaynaqlanan bəzi qüvvələrin din adı altında destruktiv fəaliyyətlərini həyata keçirməyə cəhd göstərdiklərini təəssüflə vurğulayıb. Cari ilin iyul ayında Gəncə şəhərində baş vermiş hadisələr göstərdi ki, xarici dairələrin təlimatı ilə bəzi ekstremist qüvvələr məqam tapan kimi öz məkrli planlarını həyata keçirməyə can atır. Diqqətə çatdırıb ki, bu baxımdan xarici dairələrə bağlı olan, dindən öz siyasi və ideoloji məqsədləri üçün istifadə edən radikal ünsürlərə qarşı mübarizə tədbirləri daha intensiv aparılmalıdır. İyulun 13-də dövlət başçısı yanında keçirilən iclasda ölkə başçısının qeyd etdiyi məsələlər, verdiyi tapşırıqlar diqqət mərkəzində saxlanılmalı, radikal formada dindən sui-istifadə hallarının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilməlidir.

E.Nəcəfov dini maarifləndirmə, İslam və qeyri-islam dini icmalaları ilə iş, qanunvericiliyin təkmilləşdirilməsi, dini sahə ilə bağlı qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq qurumların ölkəmizdəki dini durumla bağlı hesabatlarına diqqətin artırılması və digər məsələlərlə bağlı fikirlərini bildirib və müvafiq tövsiyələr verib. Dövlət-din münasibətlərinin tənzimlənməsi, dövlətin nəzarət tədbirlərinin artırılması, eləcə də fəaliyyətdə çevikliyin təmin olunması üçün qanunvericilik bazasında düzəliş və əlavələrin edilməsinin zəruriliyini diqqətə çatdırıb.

Sonda Dövlət Komitəsinin 2018-ci ilin növbəti 6 ayı üçün fəaliyyət planı və qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib. Qarşıdan gələn Məhərrəm ayı ilə bağlı müvafiq işlərin görülməsi barədə Dövlət Komitəsinin bölgə şöbələrinə müvafiq tapşırıqlar verilib.

# GƏNCƏDƏ TERROR AKTLARININ DİNİ ŞÜARLAR ALTINDA TÖRƏDİLMƏSİ İSLAM DİNİNƏ QARŞI ƏN BÖYÜK CİNAYƏTDİR



İyulun 17-də Gəncə “İmamzadə” dini kompleksində 10 iyul hadisələri zamanı həlak olan polis zabitlərinin anım mərasimi keçirilib. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə keçirilən tədbirdə QMİ-nin sədri Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, Gəncə Şəhər İcra Hakimiyyətinin əməkdaşları, QMİ-nin bölgələr üzrə səlahiyyətli nümayəndələri, din xadimləri, dini icmaların üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İmamzadə ziyarətgahında iyulun 10-da Gəncədə baş verən hadisələr zamanı şəhid olmuş polis zabitləri İlqar Balakişiyevin və Səməd Abbasovun ruhuna ehsan verilib, namaz qılınıb, müqəddəs Qurani-Kərimdən ayələr oxunub.

Anım tədbirində 2016-cı ildə Gəncə “İmamzadə” dini kompleksinin yenidənqurmadan sonra Prezident İlham Əliyev ilə birgə açılışında iştirak etdiyini xatırladan QMİ-nin sədri Allahşükür Paşazadə deyib ki, tədbirin keçirilməsində məqsəd iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və bir nəfər polis əməkdaşına qarşı törədilmiş sui-qəsd, bir həftə sonra isə iyulun 10-da şəhərin mərkəzində bir qrup dini radikal şəxsin təxribat törətməyə cəhd göstərdiyi zaman həmin iğtişaşların qarşısını alarkən iki nəfər yüksək rütbəli polis zabitinin faciəli şəkildə şəhid edilməsi ilə bağlıdır.

Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, baş vermiş hadisələr dövlət məmuruna və ictimai asayişi qoruyan əməkdaşlara qarşı düşünülmüş terror aktıdır: “Bu gün Azərbaycanın siyasi, iqtisadi nailiyyətlərini, eləcə də yürütdüyü daxili və xarici siyasəti qəbul etmək istəməyən qüvvələr mövcuddur. Xüsusən də Azərbaycanda düşmən qüvvələrə, ermənilərə, onların xüsusi xidmət orqanlarına işləyənlərin bu təxribatda rolu var”.

Erməni katolikosu Qaraginlə görüşərkən aralarında getmiş dialoqu xatırladan Qafqazın şeyxi deyib: “Qaragin mənimlə olan qısa dialoqunda etiraf etdi ki, onlar Azərbaycana qarşı daim təxribat planları hazırlayırlar”.

Allahşükür Paşazadə bildirib ki, iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına və onun mühafizəçisi, polis serjantına açılan atəş həm də Azərbaycan dövlətçiliyinə qarşı açılmış atəşdir. Ona görə də ölkənin bütün dindarları məlum hadisəni qətiyyətlə pislədilər. İyulun 10-da isə şəhərin mərkəzində baş vermiş təxribatda özlərinin xidməti vəzifəsini yerinə yetirərkən iki yüksək rütbəli polis əməkdaşının şəhid olması onu göstərir ki, baş vermiş bütün hadisələr əvvəlcədən düşünülmüş, məqsədyönlü şəkildə aparılan siyasətdir və Azərbaycanda iğtişaşların yaradılması ölkəmizin rifahını istəməyən qüvvələr tərəfindən həyata keçirilib.

QMİ-nin sədri qeyd edib ki, 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsi, Bakıda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, çoxsaylı beynəlxalq tədbirlərin təşkili, İlahiyyat İnstitutunun təsis edilməsi, bu ildən isə mədrəsələrin fəaliyyətə başlaması dövlət-din münasibətlərinin, dini, milli-mənəvi dəyərlərimizə verilən qiymətin yüksək səviyyədə olduğunu göstərir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, həm iyulun 3-də, həm də iyulun 10-da Gəncədə baş vermiş cinayət hadisələri Prezident İlham Əliyev tərəfindən nəzarətə götürülüb və respublikanın hüquq mühafizə orqanlarında terror hadisəsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər həyata keçirilib. Terror hadisəsini törədənlərin bir qrupunun həbs edildiyini, qanlı cinayəti törədənin məhv edildiyini və istintaq işinin davam etdiyini deyən Mübariz Qurbanlı diqqətə çatdırıb ki, bu ssenarini hazırlayanların əsas məqsədi həmin cinayətlər vasitəsilə Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, Gəncəbasar bölgəsində öz cinayətlərini daha böyük əraziyə yaymağa cəhd göstərmək və ölkəmizin müstəqilliyinə zərbə vurmaq olub. Lakin həmin ssenarini həyata keçirmək istəyənlər, eyni zamanda onun icraçıları tam iflasa uğradılar. Prezident İlham Əliyev baş vermiş hadisələrlə əlaqədar hüquq mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi müşavirədə baş vermiş hadisənin tam siyasi-hüquqi qiymətini verib.

Azərbaycandakı dövlət-din modelindən danışan DQİDK-nın sədri qeyd edib ki, bu modelin əsas



müddəaları və prinsipləri Ulu Öndərin müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrində öz əksini tapıb. Konstitusiyada əks olunub ki, Azərbaycan hüquqi, dünyəvi, demokratik ölkədir. Lakin bununla yanaşı, Azərbaycan dövləti islami dəyərlərə və İslam dininin inkişafına, bu sahədə dini kadrların hazırlanmasına çox böyük diqqət və qayğı göstərir.

Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda bütün dinlərə və millətlərə eyni cür hörmət və ehtiramla yanaşılır: “Buna görə də Azərbaycanın tolerant və multikultural dəyərləri həm müsəlman ölkələri, həm də bütün dünya tərəfindən nümunə olaraq öyrənilməkdədir. Bu gün Azərbaycanda bütün məzhəblər arasında münasibətlərin yüksək səviyyədə olması, vəhdət namazlarının qılınması, məscidlərdə möminlərin öz ibadətlərini sərbəst şəkildə yerinə yetirməsi üçün hərtərəfli şərait yaradılıb və bütün bu tədbirlər onu göstərir ki, ölkəmizdə dini sahədə böyük bir sabitlik var”.

DQİDK-nın sədri əlavə edib ki, tarixən Azərbaycanda dinlər, məzhəblər və təriqətlər arasında heç zaman qarşıdurma olmayıb: “Ona görə də biz imkan verməməliyik ki, Azərbaycanda hər hansı qüvvə dini istiqamətdə təxribatlar törədərək dövlət müstəqilliyimizə, eyni zamanda dini sahədəki inkişafımıza təhlükə yaratsınlar. Buna görə imam və axundların məscidlərdəki dini moizələri daha çox islami dəyərlərin qorunmasına, təbliğinə yönəlməli, dini mövzuda ədəbiyyatların, yeni-yeni əsərlərin yazılması, yayılması, bu mövzuda media resurslarında kütləvi təbliğat və təşviqat işlərinin aparılmasına geniş yer verilməlidir”.

Sonra QMİ sədrinin birinci müavini, müfti Salman Musayev, QMİ sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Sabir Həsənli, ilahiyyatçı – din xadimi Hacı Şahin, AMEA Gəncə Bölməsinin akademik-katibi Fuad Əliyev, İçərişəhər “Cümə” məscidinin axundu Hacı Surxay Məmmədli, şəhid polis zabitlərinin qohumları, eləcə də QMİ sədrinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov çıxış ediblər. Çıxışlarda bildirilib ki, son günlər Gəncədə baş verən hadisələr, törədilən cinayətkar əməllər İslam dinindən uzaqdır. Yalnız müəyyən qruplar var ki, din pərdəsi altında öz təxribatçı əməllərini həyata keçirməyə çalışırlar. Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilib. Dini şüarlar altında törədilən bu terror aktları, özlüyündə, İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir.

Qeyd olunub ki, bu qruplar ölkəmizdə sabitliyi pozmağa, onun inkişafını əngəlləməyə yönəlmiş addımları ilə Azərbaycan dövlətinə zərbə vurmaq niyyətində idilər. Lakin Azərbaycan polisi bu cinayətkar əməllərin qarşısını qətiyyətlə aldı, ölkədə sabitliyin pozulmasına imkan vermədi. Təəssüf ki, iğtişaşların qarşısının alınması zamanı iki polisimiz də şəhid oldu.

Diqqətə çatdırılıb ki, Azərbaycanın hər bir yerində olduğu kimi, Gəncə dindarları da daim dövlətimizdən qayğı görüb, şəhərdəki məscidlər, dini məbədlər yenidən qurularaq dindarların istifadəsinə verilib. Ümumiyyətlə, Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər.

Anım tədbirinin iştirakçılarına Qafqaz Müsəlmanları İdarəsinin Gəncə hadisələri ilə bağlı yaydığı bəyanat paylanılıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 5-də Lənkəranda Astara, Lerik və Lənkəran rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.



# LƏNKƏRANDA "AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR" MÖVZUSUNDA REGIONAL KONFRANS KEÇİRİLİB

*Ölkəmizdə tarixən mövcud olan dini dözümlülük ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği Azərbaycan dövlətinin əsas siyasi prioritetlərindəndir.*




Bu fikir iyulun 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda keçirilən regional konfransda səsləndirilib.

İki gün davam edən regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Lənkəran ŞİH-in məsul işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, yerli hüquq mühafizə orqanlarının rəhbərləri, YAP Lənkəran şəhər təşkilatının fəalları, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Konfransda dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Toplantıda çıxış edən Lənkəran ŞİH-in başçısının birinci müavini Möhübbət Babayev son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Lənkəranda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb.

Qeyd olunub ki, hazırda Lənkəran rayonunda fəaliyyət göstərən 83 məscidin 46-da DQİDK tərəfindən dövlət qeydiyyatına alınan dini icma fəaliyyət göstərir. Rayonda bütün vətəndaşların adət-ənənələrinin və dini ayinlərinin icrası üçün lazımi şərait yaradılıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub-saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. Ulu Öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu bu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Dövlət Komitəsinin sədri hazırda Yaxın və Orta Şərqdə baş verən müharibələr, qanlı toqquşmaların fonunda ölkəmizdə Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi dəyərlərin, tolerantlıq siyasətimizin təbliği və daha da möhkəmləndirilməsinin, bu mühitin qorunub-saxlanılmasının həyata keçirilən din siyasətinin mühüm istiqamətlərini təşkil etdiyini vurğulayıb.

Mübariz Qurbanlı cəmiyyətimizdə gənc nəsli milli-mənəvi dəyərlərə uyğun, milli ruhda yetişdirməyin olduqca əhəmiyyətli amil olmasına da toxunub. Bu sahədə dövrün tələblərinə uyğun islahatların aparılması, savadlı milli kadrların hazırlanması və milli-mənəvi dəyərlərimizin təbliğ edilməsinin dövlət-din münasibətlərinin tənzimlənməsi işində müsbət nəticələr verəcəyini qeyd edib.

O bu məqsədlə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını sözügedən prosesə növbəti töhfə adlandırıb.

QMİ-nin səlahiyyətli nümayəndəsi Qəni Axundzadə dinə dövlət qayğısından danışaraq ölkəmizin cənub bölgəsində dini durumun sabit olduğunu bildirib.

Qeyd olunub ki, son illər ölkəmizin bütün bölgələri kimi, Lənkəran rayonu da hər bir sahədə özünün müasir inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində rayonun bir çox dini-tarixi memarlıq abidələri əsaslı şəkildə yenidən qurulub.

Sonda iştirakçılara DQİDK tərəfindən çap olunan kitablar paylanılıb.

Regional konfrans işini iyulun 6-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirib.

Paneldə orta məktəb direktorlarının təlim-tərbiyə işləri üzrə müavinləri, ümumtəhsil məktəblərində çalışan psixoloq və "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, şəhərin aktiv gəncləri, eləcə də Yeni Azərbaycan Partiyasının Şəhər Gənclər Təşkilatının üzvləri iştirak ediblər.

Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Asif İmanlı dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini bildirib, son dövrlər DQİDK-nın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qeyd edib ki, dünyada baş verən münaqişələrin bir hissəsi dini motivlidir. Dünyanın bir çox yerində müxtəlif dinlərin əxlaq normalarını, bəşəri və insani prinsiplərini nəzərə almayan, ədavəti yaymağa çalışan qruplar var. Sədr müavini diqqətə çatdırıb ki, son dövrlər məqsədli şəkildə bəzən dini dəyərlərlə dünyəvi dəyərlər qarşılaşdırılır, dünyəvilik anlayışının dini dəyərlərlə ziddiyyət təşkil etməsi istiqamətində əsassız fikirlər səsləndirilir. G.İsmayılov çıxışında dinin əsas mahiyyətini və məqsədini nəzərə almayaraq, ondan öz maraqları üçün yararlanmaq kimi arzuolunmaz halların yaratdığı fəsadlara da toxunub.

Azərbaycanın dini radikalizmin son dərəcə az yayıldığı ölkələr sırasında olduğunu deyən G.İsmayılov bunun səbəbini xalqımızın çoxəsrlik tolerant və dini dözümlülük kimi ənənəyə malik olması, dövlətin apardığı din siyasəti ilə əlaqələndirib.

Dini radikalizmlə mübarizə tədbirləri haqqında danışan sədr müavini bu istiqamətdə ən səmərəli metodlardan birinin dini maarifləndirmə olduğunu bildirib. G.İsmayılov dini həqiqətlərin insanlara düzgün çatdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Tədbir iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏDƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ VƏ ƏHƏMİYYƏTİ"

İyulun 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə birgə fəaliyyətin təşkili və əhəmiyyəti" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın rəhbərliyi, Dövlət Təhlükəsizliyi Xidməti (DTX), Daxili İşlər, Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Milli Elmlər Akademiyasının rəsmiləri, dini konfessiyaların, qeyri-hökumət təşkilatlarının nümayəndələri, eyni zamanda gənclər iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, öz məqsədlərinə çatmaq üçün dindən sui-istifadə edərək radikal qruplar yaratmaq, ekstremist çağırışlar etmək bütün dünya üçün təhlükəlidir. Bütün dinlərin insanları daim sülhə, ədalətə, haqqa çağırdığını deyən Dövlət Komitəsinin sədri dini radikalizm və ekstremizmə qarşı mübarizənin bəşəri xarakter daşıdığını diqqətə çatdırıb. Dinin siyasiləşdirildiyi və müəyyən qrupların əlində alətə çevrildiyi zaman radikal qrupların meydana gəldiyini söyləyən Mübariz Qurbanlı bunun təkcə İslam dinində deyil, digər dinlərdə də özünü büruzə verdiyini əlavə edib. Dünyanı təhdid edən terrorizm, dini ekstremizm və radikalizmlə mübarizənin Azərbaycan üçün də böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Mübariz Qurbanlı Dövlət Komitəsi tərəfindən respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini radikalizm və ekstremizmə qarşı effektiv mübarizənin aparılması məqsədilə müxtəlif formatlarda silsilə tədbirlər həyata keçirildiyini qeyd edib. Dövlət Komitəsinin bu sahədə hüquq mühafizə orqanları və digər müvafiq dövlət qurumları, eləcə də qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədri mürəkkəb geosiyasi mövqedə yerləşməsinə baxmayaraq, bu gün Azərbaycanın nəinki regionun, hətta dünyanın ən sabit və dinamik inkişaf edən ölkələrindən biri olduğunu qeyd edib: "Bunun əsas səbəbi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi uğurlu inkişaf siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün reallıqları nəzərə alınmaqla müvəffəqiyyətlə davam etdirilməsidir".

DTX-nın məsul əməkdaşı Suad Mahmudov dini radikalizmə qarşı mübarizə tədbirləri barədə danışıb. O qeyd edib ki, DTX aidiyyəti dövlət orqanları ilə birgə ölkədə dini ekstremizm və radikalizm meyllərinin qarşısını almaq məqsədilə ardıcıl və sistemli iş aparır. Bu gün dinlə bağlı məsələlərə sırf insan hüquqları və milli-mənəvi dəyərlər prizmasından deyil, həm də təhlükəsizlik baxımından yanaşılması dövlətin hüququdur. DTX rəsmisi vurğulayıb ki, din dövlətdən ayrı olsa da, dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır.

Konfransın aktual mövzuya həsr edildiyini bildirən Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov təmsil etdiyi qurumun Dövlət Komitəsi ilə birgə xurafat, dini radikalizm və ekstremizmlə mübarizə və milli-mənəvi dəyərlərimizin təbliği məqsədilə dini maarifləndirmə istiqamətində respublikanın bütün bölgələrində kompleks tədbirlər təşkil etdiyini vurğulayıb. Bu istiqamətdə atılan addımların fərqli din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik hallarına yol verilməməsi, dini icmaların fəaliyyətində tolerantlığın və multikulturalizmin gücləndirilməsi, cəmiyyətdə radikalizm meyllərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunmasında əhəmiyyətli rola malik olduğunu deyib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov müstəqilliyin ilk illərində ölkəmizdə dini sahədə təhdidlərin mövcud olduğunu, lakin məqsədyönlü siyasət nəticəsində qarşısının uğurla alındığını bildirib. R.Həsənov bu təhlükənin qarşısının alınmasını hüquqi və ideoloji müstəvidə aparılan mübarizə ilə əlaqələndirib. Nümunəvi dövlət-din münasibətlərinə, ictimai-siyasi sabitliyə malik olan Azərbaycanın bu gün dünyada tolerantlıq mühitinə görə örnək ölkələrdən biri kimi tanındığını qeyd edib.

Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində apardığı fəaliyyətə diqqət çəkib. Eyni zamanda, ölkədə dini radikalizmə, terrorçuluğa, ekstremizmə qarşı mübarizə üçün Azərbaycanda mükəmməl qanunvericilik bazasının mövcud olduğunu, qanunvericiliyin təkmilləşdirilməsi çərçivəsində "Dini etiqad azadlığı haqqında" Qanuna əlavə və düzəlişlərin olunmasını müsbət hal kimi qiymətləndirib.

Təhsil Nazirliyinin sektor müdiri Firudin Həmzəyev yüksək təhsilli gənclərin radikal terrorizmin qarşısını almağa, ifşa etməyə qadir olduqlarını deyib. O, həmçinin milli-mənəvi dəyərlərin təbliği istiqamətində təhsil müəssisələrində DQİDK ilə birgə keçirilən tədbirlərin əhəmiyyətinə toxunub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Elgün Səfərov dini radikalizmin ailələr, xüsusilə uşaqlar üçün törətdiyi fəsadlardan bəhs edib. Bu bəlaya qarşı birgə mübarizənin zəruriliyini vurğulayıb.

Ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət, anlaşma, sülh şəraitində yaşadığını, eyni zamanda din ilə terrorizmin, radikalizmin adının yanaşı çəkilməsinin çox acınacaqlı hal olduğunu bildiriblər.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ FRANSIZ YAZIÇISI İLƏ GÖRÜŞÜB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 23-də fransız yazıçısı, "Beynəlxalq Reyn Dərnəyi"nin prezidenti Jerar Kardon ilə görüşüb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdəki tolerant və multikultural mühit barədə söz açıb. Komitə sədri ölkəmizdə dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının qanunla qorunduğunu vurğulayıb. O, Ümummilli Lider Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində bünövrəsini qoyduğu siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda Parisdə keçirilmiş konfransı məmnunluq hissi ilə xatırladan M.Qurbanlı ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasına və təbliğinə böyük həssaslıq nümayiş etdirildiyini qeyd edib.

Görüş zamanı Mübariz Qurbanlı bildirib ki, Azərbaycan torpaqlarının iyirmi faizinin Ermənistan tərəfindən işğalı nəticəsində bir milyondan çox soydaşımız öz doğma yurdlarından didərgin düşüb, dini-tarixi abidələr, o cümlədən məscidlər, ziyarətgahlar erməni vandalizminə məruz qalıb.

Azərbaycana hər səfərində davamlı inkişafın şahidi olduğunu vurğulayan fransız yazıçısı ölkəmizdəki tolerantlıq mühitini təqdirəlayiq hal kimi qiymətləndirib.

Görüşdə Azərbaycanda dini icmalara göstərilən diqqət və qayğı, eləcə də Azərbaycan-Fransa dostluq əlaqələri haqqında qarşılıqlı fikir mübadiləsi aparılıb.

# BAKIDA "MEDİA: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ" MÖVZUSUNDA KONFRANS BAŞ TUTUB

Milli Mətbuat Günü münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə iyulun 16-da Bakıda "Media: dini radikalizmlə mübarizə" mövzusunda konfrans keçirilib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) rəhbərliyi, Milli Məclisin deputatları, media təmsilçiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.



Konfransda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin kütləvi informasiya vasitələrinin işçilərinə göstərdiyi diqqət və qayğıdan, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ölkə mətbuatının daha da inkişafı məqsədilə həyata keçirdiyi tədbirlərdən söz açıb. Mübariz Qurbanlı dini radikal qruplara qarşı ideoloji sahədə mübarizənin gücləndirilməsində, dini xurafata qarşı təbliğatda medianın önəminə də toxunub. Dövlət Komitəsinin sədri bildirib ki, ölkədə ictimai-siyasi sabitliyin qorunmasında hüquq mühafizə orqanları ilə yanaşı, KİV-in də rolu çox önəmlidir. Mediada milli maraqlar məsələsində həmrəyliyi görürük, bu da vacib məsələlərdən biridir. Qeyd edib ki, bu gün kimlərsə məqsədyönlü şəkildə bəzi məsələləri qabardaraq, din pərdəsi adı altında ictimai-siyasi sabitliyi pozmağa cəhd edir. Əlavə edib ki, bu kimi təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dünyəvi və hüquqi dövlətçiliyimizin əsaslarını sarsıda bilməz.



Mübariz Qurbanlı vurğulayıb ki, din həssas mövzu olduğundan bu mövzuda yazan jurnalistlər ətraflı dini biliklərə malik olmalıdırlar. Media bu mövzuları işıqlandıran zaman diqqətli olmalı, məsələyə həssaslıqla yanaşmalıdır.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan xalqının həyatında mətbuatın çox böyük rol oynadığını deyib. Ə.Amaşov qeyd edib ki, Azərbaycan mətbuatı hər zaman milli və dini dəyərlərə hörmətlə yanaşıb. Azərbaycandan 3 milyona qədər sosial şəbəkə istifadəçisinin olduğunu diqqətə çatdıran Mətbuat Şurasının sədri çıxışında dövlətə qarşı olan bəzi qüvvələrin sosial şəbəkələrdən öz məkrli məqsədlərini yaymaq üçün istifadə etdiyini təəssüflə vurğulayıb. O, kənardan Azərbaycanın daxili siyasətinə müdaxilə etməyin mümkün olmadığını bildirib.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov çıxışında deyib ki, dünyada gedən son proseslər müsəlman dövlətlərinə yaxşı heç nə vəd etmir. Onun sözlərinə görə, bəzi qüvvələr çalışırlar ki, məhz İslamın terror dini olduğunu, terroru ancaq müsəlmanların törətdiklərini sübut etsinlər. B.Sadıqov din adı altında gizlənən ekstremist-radikal qrupların məqam tapan kimi fəaliyyətə başladıqlarını bildirib. "O insanlar ki, respublikamızda sabitliyin pozulmasına çalışırlar, onlar dövlətimizin və xalqımızın düşmənləridirlər. Ancaq hər kəs əmin olsun ki, ölkəmizdə heç vaxt ictimai-siyasi sabitliyin pozulmasına imkan verilməyəcək".

QMİ sədrinin müavini Fuad Nurullayev vurğulayıb ki, Azərbaycanda hökm sürən sabitliyə və əmin-amanlığa kölgə salmaq istəyən bəzi qüvvələr həm xaricdə, həm də ölkəmizin daxilində məkrli niyyətlərini həyata keçirməyə ciddi cəhdlə çalışırlar. F.Nurullayev bu cinayət əməllərində İslam dininin adından sui-istifadə olunmasının qətiyyən yolverilməz olduğunu bildirib.

Milli Məclisin deputatı Fazil Mustafa çıxışında dövlət-din münasibətlərindən bəhs edərək dinə göstərilən qayğıdan danışıb. Bu sahədə həyata keçirilən islahatların əhəmiyyətinə toxunan F.Mustafa, eyni zamanda bir sıra təkliflər irəli sürüb.

Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev Gəncədə baş verən hadisələri dinlə bağlamaq cəhdlərini arzuolunmaz hal kimi dəyərləndirib. Bildirib ki, bu, ölkəmizə düşmən olan bəzi qüvvələrin xaricdən siyasi məqsədlərlə yönləndirilən, cəmiyyətdə nifaq salmaq cəhdidir.

Sonra çıxış edən "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı və "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə terror və təhdidlərlə mübarizədə mətbuatın rolundan danışıblar. Bildirilib ki, dini mövzuya müraciət edən jurnalistlər həssaslıq nümayiş etdirməlidirlər.

Konfransda, həmçinin dini radikalizmə qarşı mübarizə, milli-mənəvi, o cümlədən dini dəyərlərin, multikultural və tolerant ənənələrin qorunması və təbliği istiqamətində KİV-in üzərinə düşən vəzifələr barədə müzakirələr aparılıb.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini mövzuları işıqlandıran, milli-mənəvi dəyərlərimizin, tolerant və multikultural ənənələrimizin təbliğində fəallıq göstərən bir qrup jurnalist mükafatlandırılıb.

# MÜBARİZ QURBANLI: «GƏNCƏDƏ DİNİ İBADƏTLƏRİN YERİNƏ YETİRİLMƏSİNDƏ HEÇ BİR PROBLEM OLMAYIB VƏ YOXDUR»

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gəncədəki hadisələrin dindarların narazılığı zəminində baş verməsi ilə bağlı iddialara münasibət bildirib.

M.Qurbanlı APA-ya müsahibəsində deyib ki, Gəncədə dini durumda, dini ibadətlərin yerinə yetirilməsində heç bir problem olmayıb və yoxdur: "Gəncədəki məscidlər normal şəkildə fəaliyyət göstərir və inanclı insanlar öz ibadətlərini yerinə yetirirlər. Qafqaz Müsəlmanları İdarəsi tərəfindən həmin məscidlərə rəsmi din xadimləri təyin olunub, bu ildən isə Mənəvi Dəyərlərin Təbliği Fondu vasitəsilə məscidlərdə rəsmi təyinatı olan din xadimlərinə maddi dəstək verilir. Bundan başqa, respublikanın digər yerlərində olduğu kimi, Gəncədə də silsilə dini maarifləndirmə tədbirləri keçirmişik. Xüsusilə də "İmamzadə" kompleksinin əsaslı təmirdən sonra yenidən istifadəyə verilməsi ilə inanclı insanlara daha geniş imkanlar yaradılıb. Yəni, "Gəncədə kimlərsə dini ayinlərin icrasına hansısa formada maneələr olur" deyərək, hadisəni dinə bağlamağa çalışırlarsa, bu, tamamilə əsassızdır. "İmamzadə" kompleksində ətraf bölgələrdən də inanclılar toplaşaraq rahat şəkildə Aşura mərasimlərini qeyd edirlər. Amma bir neçə ildir ki, bu cür təxribatçı qruplar Gəncədə Aşura günlərində polisi təxribata çəkərək qarşıdurma yaratmağa çalışırlar. Ötən il bunu açıq formada etdilər və bir neçə polisə də zərər yetirdilər. Son hadisəyə qədər bu formada müəyyən qrupların hazırlandığı, Gəncədə təxribat törətmə planları müşahidə olunurdu. Ancaq qarşısını almaq üçün Dövlət Komitəsi, QMİ, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və Baş Prokurorluqla birgə profilaktik tədbirlərimizi görürdük. Ümumilikdə Azərbaycanda insanların dini ayinlərdə iştirakı miqyasına görə əhalinin 3-4 faizini təşkil edir. Başqa bölgələrlə müqayisədə Gəncədə də bu rəqəm yüksək deyil".

Komitə sədri deyib ki, istər Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı sui-qəsdin təşkili, istərsə də ardınca iki yüksək rütbəli polis zabitinin şəhid edilməsi sırf xarici və daxili qüvvələrdən qidalanan bir qrup ekstremist və radikalların əməlidir: "Azərbaycanın son illər əldə etdiyi nailiyyətlər, həyata keçirdiyi layihələr, təbii ki, bəzi dairələri narahat edir. Bu da onların daxildəki təxribatçı qüvvələri işə salması, təəssüf ki, bəzi gənclərin də buna alət olması ilə nəticələnir. Cinayəti törədən qatillərin əməlləri onların kimliyini bir daha göstərir. Amma bu kimi hallar Azərbaycan dövlətini sarsıda bilməz. Onlar qanunun ən sərt üzü ilə cəzalarını alacaqlar. Azərbaycanda dini kəsimə yüksək dövlət qayğısı var, bizdə dinlər və dindarlar fəaliyyətlərində azaddırlar".

# "DİN ADI ALTINDA TƏXRİBATLAR EDİR, MİLLİ MARAQLARIMIZA ZƏRBƏ VURMAQ İSTƏYİRLƏR"

## *Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının APA-ya müsahibəsi*



**- Son günlər Gəncə şəhərində din adı ilə baş verən olayları şərh etməyinizi istərdik...**

- Müəyyən dairələr Azərbaycanda kriminal elementlərin əli ilə din adı altında terror aktları həyata keçirməklə qarışıqlıq salmağa çalışır. Gəncə də təsadüfən seçilməyib. Çünki Gəncə bizim strateji cəhətdən əhəmiyyətli bölgəmizdir. Eyni zamanda, düşmənlə təmasa yaxın ərazidir. İndi bu məqamda icra hakimiyyəti başçısı Elmar Vəliyevə silahlı hücum edən şəxsin avtobioqrafiyasına nəzər salaq. Araşdırmalar zamanı onun təhsili, əlaqələri haqqında məlumatlar üzə çıxıb və məlum olub ki, o, faktiki olaraq dinə bağlı ailədə və mühitdə böyüməyib. Xarici ölkəyə dini ziyarət səfərləri zamanı müəyyən təlim keçməklə Gəncədə törədilən terror əməlində istifadə edilib.

Eyni zamanda, bu hadisənin davamı olaraq Gəncədə meydanda baş verən və iki polis zabitinin şəhid olması ilə nəticələnən hadisəyə baxaq. Ora böyük meydandır. Əvvəlcədən aksiya təyin olunur, amma əhali bu aksiyanı dəstəkləmir. Qeyd edilən vaxtda bir qrup cinayətkar xarakterli adamlar peyda olur və qəflətən polis zabitlərinə hücum edir. Özü də polisin onlarla söhbət apardığı zaman, qəflətən – xaincəsinə vururlar. Deməli, bu qruplar məqsədyönlü şəkildə buna hazırlaşıblar, yeni cinayət törətməklə vəziyyəti daha da çətinləşdirmək, hakimiyyətin bundan irəli gələrək atacağı sərt addımlardan dolayı əhalini öz tərəflərinə çəkmək niyyəti daşıyırdılar. Amma məqsədlərinə çatmadılar. İndi müvafiq qurumlar çalışır və bunun arxasında duranları aşkar edəcəklər. Bizdə məlumatlar var ki, bu hadisəni törədən qrupların üzvləri zaman-zaman xaricdəki dini ziyarətgahlara aparılıblar, onlara müəyyən təlimlər keçilib. O qrupları araşdırsanız, görərsiniz ki, onların arasında elə şəxslər var, heç ömründə məsciddə olmayıblar, yəni dinlə heç bir əlaqələri yoxdur.

**- Artıq neçənci dəfədir, ölkədə bu kimi olaylar baş verən zaman arxasında xarici qüvvələrin olduğu bildirilir. Kimdir bu xarici qüvvələr? Dəqiq ünvanı açıqlamaq olarmı? Eyni zamanda, Dövlət Komitəsi son illər ard-arda təbliğat xarakterli tədbirlər həyata keçirir. Necə olur ki, bu təbliğatın qarşısında o xarici dairələrin niyyəti ölkədə reallaşa bilir?**

- Belə deyim, əgər o xarici dairələrin təbliğatı bizim gördüyümüz işlərin qarşısında keçərli olsaydı, o zaman yüz minlərlə insan onların təbliğatına uyaraq bu prosesə qatılardı. Amma biz orada nə qədər adam görürük? Uzağı 100-150 nəfər. Bu, xüsusi bir təxribat qrupudur. Biz dövlət qurumları olaraq birgə çox böyük maarifləndirmə işləri aparırıq. Amma heç kim bu xain qrupları heç vaxt təbliğat yolu ilə ləğv edə bilməz. Bunları yalnız cinayət başında yaxalamaqla tərksilah və cəmiyyətdən təcrid etmək olar. Bu gün sosial şəbəkələrə baxaq. Gəncədəki polislərin şəhid edilməsinə yalnız hansısa anonim ünvanları olan istifadəçilər haqq qazandırır.

Gələk indi onlara havadar olan xarici qüvvələrin ünvanına. Belə bir fikir var ki, təxribatdan kim faydalana bilər? Gəlin baxaq, görək bu təxribatlar baş tutduğu halda kimlər və hansı xarici dairələr faydalana bilərdi? Son vaxtlar ölkəmizdə həyata keçirilən işlər - ordumuzun möhtəşəm hərbi paradı, enerji layihələrinin reallaşması, strateji tərəfdaşlarımızın sayının artması və s. Bu, kimlərə əks təsir edirdisə, təxribatdan da onlar faydalanır. Digər məqam: kimlər, hansı dairələr bunları kənardan müdafiə edir? Məsələn, Gəncənin icra başçısına sui-qəsdi kimlər dəstəkləyirdi? Ermənistanda internet üzərindən yayılan bir televiziyanın separatçı əməkdaşları dayanmadan bu prosesə dəstək verir, çağırışlar edirlər. Konkret olaraq, Azərbaycan əleyhinə daim çağırış edən separatçılardır. Çox təəssüf, öz içərimizdə də hakimiyyət əleyhinə olan insanlar var ki, bu dalğaya qoşularaq milli maraqlarımızın əleyhinə hərəkət edirlər - bilərəkdən, ya da bilməyərəkdən. O ki qaldı konkret o xarici qüvvələrin adlarını çəkməyə, hazırda aidiyyəti qurumlar araşdırma aparır. Araşdırma başa çatdıqdan sonra açıqlanacaq. Bu, məqsədli təxribat idi. Orada yüksək rütbəli polis zabitləri öldürülüb. Bu haradansa məxsusi şəkildə gələn tapşırığın məqsədli icrası idi. Əminliklə deyə bilərəm ki, bu cinayəti törədənlər və onların arxasında dayananlar aşkar ediləcək və müvafiq cəzalarını alacaqlar.

**- Bir neçə dəfə də açıqlanıb və narahatlıq ifadə olunub ki, ölkədə dini icması olmayan məscidlər fəaliyyət göstərir. Onların fəaliyyəti gələcək gərginliklər üçün narahatlıq doğurur. Bunlar barədə nə deyə bilərsiniz?**

- Azərbaycanda 2500-ə qədər məscid varsa, bunlardan 1500-dən çoxu daimi fəaliyyət göstərir. 310 məscid isə Mədəniyyət Nazirliyinin nəzdində tarixi mədəniyyət abidəsi kimi qorunur ki, onların bir çoxunda dini ayinlər icra olunmur. Onu da deyim ki, məsciddə dini icmanın qeydiyyatının olmaması QMİ tərəfindən oraya imam təyinatının qarşısını almır. QMİ o məscidlərə imam təyin edib nəzarət edə bilər. Hətta böyük məscidlərə imam naiblərini də təyin edir. Hətta belə bir qayda da yaratdıq ki, daimi fəaliyyətdə olmayan, müəyyən vaxtlarda açılıb-bağlanan məscidlərə mütəvəlli təyin olunsun ki, oraya nəzarət edilsin. Bu gün Azərbaycandakı məscidlərin 90 faizi təyinatlıdır. Yəni ya imamı, ya da mütəvəllisi var. Biz birgə fəaliyyət nəticəsində 25-dən çox məsciddən radikalların birbaşa təsirində olanları tam kənarlaşdırmışıq. Həmin məscidlərdə artıq QMİ tərəfindən rəsmi din xadimləri təyin olunub. Bu məsələni, demək olar ki, tam həll etmişik. Bu gün Azərbaycanda minbərinə qeyri-rəsmi şəxsin çıxıb moizə oxuyacağı məscid qalmayıb. Hamısı rəsmi təyin olunmuş din xadimləridir.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



İyulun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən dövlət qeydiyyatına alınan bir qrup dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil edilən tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icma sədrləri iştirak ediblər.

Dinə dövlət qayğısından bəhs edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi dövlət-din münasibətlərində də sürətli inkişafa nail olunub, milli-mənəvi dəyərlərimizin və tolerantlıq mühitinin qorunub-saxlanılması istiqamətində mühüm nailiyyətlərə imza atılıb. Bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran sədrin birinci müavini ölkəmizdə uğurla gerçəkləşdirilən dövlət-din münasibətləri konsepsiyasının nəticəsində Azərbaycanda yüksək tolerantlıq mühiti və dinlərarası harmoniyanın hökm sürdüyünü qeyd edib. Səyyad Salahlı bu yaxınlarda dövlət başçısının Sərəncamı ilə dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərinin ahəngdarlığının təmin edilməsi məqsədi ilə müsəlman və qeyri-müsəlman dini icmalara maliyyə yardımının ayrılmasını buna bariz nümunələrdən biri kimi dəyərləndirib.



Sonra 26 dini quruma qeydiyyat şəhadətnamələri təqdim edilib.

Lənkəran rayonu Boladi kəndi Seyidoba məhəllə məscidi dini icmasının sədri Zamin Məmmədov dini icmalarla sıx əlaqələrin qurulmasının, onların qayğı ilə əhatə olunmasının diqqətəlayiq olduğunu bildirib.

# "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ"

## SAMUXDA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Samux Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda iyulun 9-10-da ikigünlük seminar-müşavirə keçirilib.

Dini icma sədrləri, din xadimləri, təhsil, səhiyyə, mədəniyyət idarələrinin, eləcə də rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Samux RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri müavini - dini



qurumlarla işin təşkilatçısı Vüqar Tağıyev dövlətin dinə qayğısından bəhs edib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmlə mübarizənin vacibliyindən danışaraq bildirib ki, cəmiyyətin bütün təbəqələrinin bu prosesdə iştirak etməsi zəruridir. Dini radikalizmə qarşı mübarizənin ən effektiv yolunun maarifləndirmə olduğunu qeyd edən S.Salahlı Dövlət Komitəsinin bu sahədə olan fəaliyyəti barədə ətraflı məlumat verib. O qeyd edib ki, dini radikalizmin qarşısının alınması ölkəmizdə mövcud olan dini tolerantlıq və multikultural dəyərlərin qorunması və təşviqi baxımından böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulduğunu deyən S.Salahlı dövlətin yürütdüyü din siyasətinin, dini konfessiyalar arasında mövcud olan qarşılıqlı əməkdaşlıq mühitinin bütün dünyada nümunə kimi təqdim olunduğunu vurğulayıb.

Seminar-müşavirə öz işini növbəti gün davam etdirib.

Yuxarı sinif şagirdləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirədə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı



Dövlət Komitəsinin sifarişi ilə çəkilən sənədli filmlərin dini maarifləndirmə və radikalizmə qarşı mübarizə tədbirlərində böyük mənəvi-psixoloji təsirə malik olduğunu qeyd edib. Bildirib ki, Dövlət Komitəsi digər dövlət qurumları, yerli icra hakimiyyətləri, vətəndaş cəmiyyətləri institutları, ictimaiyyət nümayəndələri, ölkə dindarları ilə birgə ölkə üzrə dini maarifləndirmə tədbirləri keçirir. Ölkəmizdə dini konfessiyalara maddi yardım ayrılması, dini ibadət yerlərinə xüsusi diqqət və qayğı ilə yanaşılması haqqında danışan Səyyad Salahlı Azərbaycanın dövlət-din modelinin dünyaya nümunə olduğunu qeyd edib. Vurğulayıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu uzaqgörən və məqsədyönlü siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva "Dini təbliğat və sosial şəbəkələr" mövzusunda təqdimatla çıxış edib. Y.Əliyeva qeyd edib ki, gənclərin və yeniyetmələrin sosial şəbəkədən istifadəsi geniş xarakter aldığına görə bu sahəyə daha çox diqqət ayrılmalıdır. Dini radikal qruplar sosial şəbəkələrdən istifadə etməklə öz zərərli fikirlərini daha geniş auditoriyaya, əsasən də gənclər arasında yaymağa çalışırlar.

DQİDK-nın Xarici əlaqələr şöbəsinin əməkdaşı Səfər Səfərli çıxışında bildirib ki, cəmiyyəti narahat edən məsələlərdən biri də gənclərin radikal dini qrupların təsiri altına düşməsidir. Gənclərin dini sahədə biliklərinin yetərincə olmaması, mövcud situasiyanı düzgün qiymətləndirməməsi qısa zamanda radikal dini qruplaşmaların təsiri altına düşməsinə zəmin yaradır. Bunun qarşısını almağın ən effektiv yolu dini olduğu kimi gənclərə öyrətmək, onları milli-mənəvi dəyərlərə, Vətənə, dövlətçiliyə bağlılıq ruhunda tərbiyə etməkdir.

Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə dini ekstremizmə qarşı hüquqi müstəvidə həyata keçirilən tədbirlərdən, eləcə də Azərbaycanda dini ekstremizmə qarşı mübarizənin məqsəd və əsas prinsiplərindən bəhs edib.

Tədbirin sonunda dini radikalizmlə mübarizə və maarifləndirmə məqsədi ilə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

## TƏRTƏRDƏ

Bu mövzuda növbəti ikigünlük seminar-müşavirə iyulun 16-17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə baş tutub.



Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Tərtər RİH-in başçısı Müstəqim Məmmədov rayondakı dini durum haqqında məlumat verib. Qeyd edib ki, cəbhə bölgəsində bu cür tədbirlərin keçirilməsinin böyük əhəmiyyəti vardır. Ölkə rəhbərliyinin dini sahədə həyata keçirdiyi işlərdən geniş söhbət açan RİH başçısı Dövlət Komitəsinin bu istiqamətdə gördüyü işlərin müsbət nəticələr verdiyini vurğulayıb.

Natiq qeyd edib ki, Azərbaycanın günbəgün sürətli inkişafı bəzi maraqlı dairələri hər zaman narahat edib. Buna görə də hər fürsətdə ölkəmizə, onun rəhbərliyinə qarşı qarayaxma kampaniyaları aparır, Gəncədə olduğu kimi, qarışıqlıq salmağa çalışırlar. Buna görə də hamımız ayıq-sayıq olmalı, dövlətimizin bütövlüyünə, müstəqilliyimizə qarşı yönəlmiş bu kimi təxribatları dəf etməliyik.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında Ulu Öndərimizin uzaqgörən siyasətinin dini dəyərlərimizin dirçəlməsinə yönəldiyini, milli-mənəvi dəyərlərimizə hər zaman böyük ehtiram və qayğı ilə yanaşdığını deyib. Bu nümunəvi siyasətin dövlət başçımız tərəfindən uğurla davam etdirilməsinin, dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulmasının nəticəsidir ki, bu gün ölkəmizdə dini baxımdan stabillik mövcuddur.

Dövlət Komitəsi sədrinin birinci müavini diqqətə çatdırıb ki, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, dini dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, o cümlədən dini radikalizm və dini ekstremizm kimi mənfi elementlərlə mübarizə sahəsində ən təsirli üsullardan biri maarifləndirmədir. S.Salahlı dini maarifləndirmə işinin aparılmasında dini icmaların da üzərinə böyük vəzifə və məsuliyyət düşdüyünü qeyd edib, onları müasir dövrün bəlası hesab edilən dini radikalizmə, xurafata yol açan amillərin qarşısını almaqda, milli-mənəvi dəyərlər ruhunda gənc nəsil yetişdirməkdə fəal olmağa çağırıb.

Gəncədə baş verən hadisələr haqqında da danışan S.Salahlı xalqımızın və dövlətimizin əzmi sayəsində ölkədə xaos yaratmaq cəhdlərinin növbəti dəfə süquta uğradığını vurğulayıb. O bu hadisələrin dövlətimizə qarşı törədilən terror olduğunu deyib.

Tərtər şəhər "Cümə" məscidi dini icmasının sədri və axundu Sadiq Cəfərov Prezident İlham Əliyevin ölkə dindarlarına diqqət və qayğısından danışıb. Qeyd edib ki, dövlətimizin bu qayğısının müqabilində bəzi dairələr



din pərdəsi altında Gəncə şəhərində qarışıqlıq yaratmaq istədilər: "Əlbəttə, hadisədən dərhal sonra Azərbaycan cəmiyyəti, dindarlarımız sərt reaksiya verərək bu terroru törədənlərin, ona rəhbərlik edənlərin qanun qarşısında ən sərt şəkildə cəzalandırılmalı olduqlarını söylədilər. Məmurumuza, polisimizə atılan güllə dövlətimizə atılan güllədir və biz dindarlar birmənalı şəkildə bu hadisələri pisləyirik".

Seminar-müşavirə öz işini növbəti gün davam etdirib.

Müəllimlər, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən Tərtər RİH-in başçısı Müstəqim Məmmədov rayondakı dini durum haqqında geniş məruzə ilə çıxış edib. Natiq vurğulayıb ki, dini radikalizmlə mübarizə bütün ölkə boyu, xüsusilə də düşmənlə təmas nöqtəsində yerləşən Tərtər rayonunda çox böyük həssaslıqla həyata keçirilir.

Azərbaycanın tarixən sahib olduğu tolerant və multikultural dəyərlərdən danışan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərimizin xüsusi rolunun olduğunu deyib. Qeyd edib ki, milli-mənəvi dəyərlər vətənpərvərlik hisslərinin formalaşmasında əsas lokomotivlərdəndir və Ulu Öndər Heydər Əliyev də məhz bu səbəbdən həmin dəyərlərin qorunub-saxlanılmasını, gələcək nəsillərə sağlam şəkildə ötürülməsini istəyirdi. Onun əsasını qoyduğu bu işlər, xəyalını qurduğumuz arzular bu gün Prezident İlham Əliyevin uzaqgörən, dərin təhlillərə əsaslanan siyasəti sayəsində reallığa çevrilməkdədir. Əlbəttə, ölkəmizin qazandığı uğurlar beynəlxalq arenada bizi istəməyən qüvvələri, ermənilər, onların havadarlarını qıcıqlandırır. Hətta bəzən deyirlər, necə ola bilər ki, bir ölkənin ərazisinin 20 faizi işğal altında olduğu halda bu qədər inkişaf edir, dini-etnik müxtəlifliyə baxmayaraq, heç bir qarşıdurma, ayrı-seçkilik yaşanmır. Bu səbəbdən

Davamı səh. 9

# "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ"

Əvvəli səh. 8

sahib olduğumuz tolerant və multikultural dəyərlərimizə, sabitliyimizə zərbə vurmaq üçün dəridən-qabıqdan çıxmağa çalışırlar. Ancaq unutduqları bir şey var: Azərbaycan artıq onların bir vaxtlar gördükləri humanitar yardıma ehtiyacı olan, zəif ölkə deyil. Əksinə, indi Azərbaycan özü başqa ölkələrə yardımlar edir, sərmayələr yatırır. Ona görə də həmin xarici dairələrin cəhdləri uğursuzluğa məhkumdur və uğursuzluqlarının davam etməsi üçün bundan sonra da cənab Prezidentin siyasətini dəstəkləməli, bu siyasətin qüsursuz şəkildə icrasına çalışmalıyıq.

Komitə sədrinin birinci müavini dini radikalizm, ekstremizm, fanatizm və mövhumat kimi mənfi tendensiyaların təsiri altına düşməmək üçün gənclərə təhsilə daha çox diqqət və vaxt ayırmağı tövsiyə edib.

Tərtər şəhər "Cümə" məscidinin imam müavini Məhərrəm Rəhimov ölkə rəhbərliyinin dinə və dindarlara qayğısının yüksək səviyyədə hiss edildiyini, dindarların da bu diqqət və qayğının müqabilində dövlət başçımızın yürütdüyü siyasəti dəstəkləməli olduğunu bildirib.

Daha sonra çıxış edən DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Orxan Maşayev dini radikalizm, onun yaranma səbəbləri, dini radikal cərəyanların təbliğat metodları haqqında məlumat verib. O.Maşayev bildirib ki, müasir dövrdə ən prioritet məsələlərdən biri də gənclərin bu sosial bəladan uzaqlaşdırılmasıdır. Natiq qeyd edib ki, bunun üçün din gənclərə olduğu kimi izah edilməli, onlara milli-mənəvi dəyərlərə hörmət etmək aşılanmalıdır.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

## QAXDA

"Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda növbəti seminar-müşavirə iyulun 23-24-də DQİDK və Qax RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

Din xadimləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Qax RİH başçısı Musa Şəkiliyev mövzunun aktuallığından danışıb, rayondakı dini durum və dini icmaların fəaliyyəti haqqında geniş məruzə ilə çıxış edib. Ölkəmizdə hər kəsin etiqad azadlığının tam təmin olunduğunu, bütün dinlərə məxsus abidələrin təmir və bərpa edildiyini, yenilərinin tikildiyini vurğulayan natiq bildirib ki, Dövlət Komitəsinin keçirdiyi bu cür tədbirlər cəmiyyətdə dini bilgilərin artırılması və dini radikalizmlə mübarizə metodlarının təhlili baxımından çox əhəmiyyətlidir.



M.Şəkiliyev DQİDK-nın həyata keçirdiyi maarifləndirmə tədbirlərinin əhəmiyyətini yüksək dəyərləndirib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətlərindən danışıb. Qeyd edib ki, Ümummilli Liderimiz milli-mənəvi dəyərlərimizə hər zaman həssaslıqla yanaşır və gələcək nəsillərin məhz bu dəyərlər əsasında, vətənpərvərlik ruhunda yetişdirilməsini istəyirdi. Fəxrlə deyə bilərik ki, bu gün onun ideyaları Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğunlaşdırılmaqla həyata keçirilir. Dövlət başçımızın bütün dinlərə, dindarlara diqqət və qayğısından danışan Dövlət Komitəsi sədrinin birinci müavini deyib ki, bəzi maraqlı dairələr Azərbaycanda mövcud olan tolerantlıq mühitini pozmağa çalışırlar. S.Salahlının sözlərinə görə, terrorçu üçün heç bir müqəddəs dəyər yoxdur, o, öz çirkin niyyətini həyata keçirmək üçün hətta din kimi pak dəyərlərdən də istifadə edə bilər. Gəncədə baş verən son hadisələrdən də danışan natiq bildirib ki, bu, birmənalı şəkildə dövlətə qarşı terrordur və hadisədən sonra cəmiyyətimizin reaksiyası da göstərdi ki, Azərbaycan xalqı heç bir halda belə yad ünsürlərin dövlətimizin bütövlüyünə zərbə vurmasına imkan verməyəcək.

Dövlət Komitəsi sədrinin birinci müavini deyib ki, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, dini dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, o cümlədən dini radikalizm və dini ekstremizm kimi mənfi elementlərlə mübarizədə ən effektli yollardan biri maarifləndirmədir. Bu mənada dini icmaların da üzərinə böyük vəzifə və məsuliyyət düşür. İmkan verməmək olmaz ki, dünyanın bir çox ölkəsinin əziyyət çəkdiyi dini ekstremizm Azərbaycana ayaq açsın. Çünki təcrübə göstərir ki, müasir dövrdə müsəlman ölkələrində sabitliyin pozulmasında din amili xüsusi rol oynayır.

İslamın sülh və qardaşlıq dini olduğunu vurğulayan QMİ-nin Qax bölgəsi üzrə qazısı Novruz Sadıqov təəssüflə qeyd edib ki, bu gün müsəlman libasına bürünən müəyyən məkrli insanlar qətllər törədir, dövlətin birliyinə, bütövlüyünə təhdid yaratmağa çalışırlar. Dövlət başçısının dinə, dindarlara göstərdiyi diqqət və qayğıdan da danışan qazı vurğulayıb ki, ölkə dindarları Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ətrafında sıx birləşiblər.

### Seminar-müşavirə öz işini növbəti gün yekunlaşdırıb.

Gənclər, müəllimlər, yuxarı sinif şagirdləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan Qax RİH başçısının müavini Vəfa Heydərova mövzunun aktuallığından danışıb. Bildirib ki, Dövlət Komitəsinin keçirdiyi bu kimi tədbirlər cəmiyyətdə sağlam dini maarifləndirmə aparılması baxımından çox əhəmiyyətlidir.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizin son illər qazandığı uğurlardan danışıb. Qeyd edib ki, bu nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin banisi olduğu hərtərəfli inkişaf strategiyasının bu gün ölkə başçımız İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi durur. Respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq işləri bəzi beynəlxalq gücləri, maraqlı dairələri narahat etməkdədir.

Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərimizin xüsusi rol oynadığını diqqətə çatdıran S.Salahlı qeyd edib ki, milli-mənəvi dəyərlər vətənpərvərlik hisslərinin formalaşmasında böyük əhəmiyyət daşıyır. Bildirib ki, dini radikalizm, ekstremizm, fanatizm və mövhumat kimi mənfi tendensiyaların təsiri altına düşməmək üçün gənclər elm və təhsilə daha çox diqqət ayırmalı, bütün dünyada gedən elmi-texnoloji tərəqqini dərindən izləməli və bu inkişafa öz töhfələrini verməyə çalışmalıdırlar.

Daha sonra çıxış edən Dövlət Komitəsinin Dini maarifləndirmə şöbəsinin əməkdaşı Orxan Maşayev dini radikalizmin yaranma tarixindən və səbəblərindən söhbət açıb. Qeyd edib ki, radikal ideologiya daşıyıcılarının əsas hədəfi hər zaman gənclər olublar. Ona görə də, xüsusilə gənclər elmi biliklərini artırmaqla yanaşı, mötəbər mənbələrdən yararlanaraq təməl dini bilgilərə də yiyələnməyə çalışmalıdırlar.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ GƏNCƏ HADİSƏLƏRİ İLƏ BAĞLI BƏYANAT YAYIB

Qafqaz Müsəlmanları İdarəsi Gəncə hadisələri ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "Son günlər Gəncə şəhərində baş verən qətl və terror hadisələrini dərin təəssüf və ciddi narahatlıq hissi ilə qarşılayırıq. Hiddət doğuran odur ki, Vətənimizdə hökm sürən sabitlik və əmin-amanlıq, tərəqqi və quruculuq işlərinə, habelə xarici siyasət sahəsində uğurlarımıza və haqq mübarizəmizdə qələbələrimizə kölgə salmaq niyyəti güdən bəzi qüvvələr həm xaricdə, həm də daxildə məkrli niyyətlərini cidd-cəhdlə həyata keçirməyə çalışırlar. Bu cinayət əməllərində Allahın yaratdığı insanın qətlə yetirilməsini bütün bəşəriyyətə qarşı ağır cinayət kimi dəyərləndirən müqəddəs İslam dinimizin adından sui-istifadə olunması isə qətiyyən yolverilməzdir.

Azərbaycanın din xadimləri və dindarlarının mövqeyini ifadə edərək, baş verən hadisələri dinlə bağlamaq cəhdlərini birmənalı olaraq rədd edir, bunu ölkəmizə düşmən olan bəzi qüvvələrin xaricdən siyasi məqsədlərlə yönləndirilən, cəmiyyətdə nifaq salmaq cəhdi kimi qiymətləndiririk. Ölkəmizdə mövcud sabitliyin pozulması, qarşıdurma yaratmaq məqsədilə aksiyalara cəlb etmək üçün dini şüarlarla çağırışlar edilməsini dövlətçiliyimizə, milli mənəvi dəyərlərimizə qarşı təxribat kimi dəyərləndirir, din pərdəsi altında fəaliyyət göstərən radikal qrupların cəmiyyətdə iğtişaşlara təhrik etməsini dövlətə qarşı terror, islami dəyərlərimizə zidd hesab edirik. Terrorçunun isə dini olmur.

Bu hadisələr zamanı ictimai asayişin keşiyində duran, xidməti vəzifələrini yerinə yetirərkən yaralanmış qardaşlarımıza Allah-Təaladan şəfa diləyir və şəhidlərimizə rəhmət deyərək ailələrinə dərin hüznlə başsağlığı veririk.

Ümidvarıq ki, insan həyatına ali qiymət verən İslam dininin humanist dəyərlərinə zidd olaraq həyata keçirilən qətl və sui-qəsd hallarını kimliyindən asılı olmayaraq törədənlərin, məscidlərimizi dağıdan erməni ekstremistlərinin dəyirmanına su tökənlərin dövlətçiliyimizə təhlükə yaratmaq məqsədi güdən əməllərinə ciddi hüquqi qiymət veriləcəkdir.

Azərbaycan dindarları daim dövlətçiliyimizə sadiqdirlər. Din xadimləri, dindarlar hüquqi, demokratik dövlətin - Azərbaycan Respublikasının vətəndaşları olaraq qanunun aliliyini qəbul edir, ictimai-siyasi sabitliyi, davamlı sosial-iqtisadi tərəqqini və bunun təminatçısı olan dövlətimizin möhtərəm başçısını dəstəkləyirlər. Milli mənəvi dəyərlərimizə ali diqqət və qayğı göstərən Prezidentimizin siyasətini dəstəkləyən dindarlar dövlətin bu kimi təxribatların qarşısının qətiyyətlə alınması istiqamətində səylərini dəstəkləyirlər. Biz vətəndaşları, dindarları, xüsusən, gəncləri dövlətçiliyimizə qarşı yönləndirilən təxribat və məkrli çağırışlara uymamağa çağırırıq. Din xadimlərimiz xaricdən məkrlə yönləndirilən belə təxribatların mahiyyətini öz moizələrində xalqa çatdırmalıdırlar.

Əminik ki, belə təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsaslarını heç bir vəchlə sarsıda bilməz, inşallah!".

# "Gəncədə baş vermiş iğtişaşın dinlə heç bir əlaqəsi yoxdur"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı AzVision.az-a açıqlamasında bildirib ki, Gəncədə baş vermiş iğtişaşın dinlə heç bir əlaqəsi yoxdur: "Sadəcə olaraq müəyyən qüvvələrdən istifadə edərək buna dini rəng verməyə çalışırlar".

Komitə sədrinin birinci müavini deyib ki, təxribata cəhd edən qrupların göstəriş verənləri xaricdədir. "Bu məsələlər dövlətin müvafiq orqanları tərəfindən ciddi şəkildə araşdırılır. Bütün məsələlər məlum olacaq və hər kəs cəzasını alacaq. Bu hadisə millətə, dövlətə qarşı xəyanətdir, xalqın əleyhinə olan hərəkətdir, Azərbaycanın qüdrətlənməsini, güclənməsini istəməyən, xüsusilə xarici dairələrin və onların yerlərdəki əlaltılarının fitnəkarlığıdır, arxadan vurduqları zərbədir. Məqsəd xalqın rifah halına kölgə salmaq, ölkədə sabitliyi pozmaqdır. Bu, Azərbaycandakı həm siyasi, həm mənəvi, həm psixoloji həyatın sarsıdılmasına yönəldilən hərəkətdir. Bir sözlə, xəyanətdir".

S.Salahlı qeyd edib ki, Azərbaycandakı tolerantlıq və multikultral yaşayış tərzi və ənənələr həm tarixdən qonşularımıza və digər dövlətlərə məlumdur, həm də Azərbaycanın bu istiqamətdə keçirilən son illərdəki böyük və möhtəşəm beynəlxalq tədbirlərindən bəllidir. "Gəncədəki iğtişaş dinlə bağlana bilməz. Sadəcə orada bir sıra dini ruhlu insanlar var ki, onlar adətən belə hallarda müəyyən şüarlardan istifadə edirlər".

# AZƏRBAYCANDA MÖVCUD OLAN DİNİ TOLERANTLIQ BÜTÜN DÜNYADA ÖRNƏK KİMİ QƏBUL EDİLİR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov iyulun 19-da Almaniyanın Yena şəhərindəki Yevangelik lüteran dini icmasının üzvü, pastor Qorthart Günter Valter ilə görüşüb.

Görüş zamanı Dövlət Komitəsi sədrinin müavini milli və dini zəmində münaqişələrin artdığı bir dövrdə tolerantlığı ilə nümunəvi olan Azərbaycanın multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində əldə etdiyi uğurlardan bəhs edib. Səyavuş Heydərov vurğulayıb ki, dinlərarası münasibətlərdə böhran yaşayan, islamofobiya, antisemitizm kimi halların artdığı bir zamanda dövlət xüsusi tarixi, mənəvi əhəmiyyəti olan müxtəlif dini ibadətgahların bərpasına və inşasına diqqət ayırır. Dövlət-din münasibətləri istiqamətindəki siyasətin tərkib hissəsi olaraq dini mənsubiyyətindən asılı olmayaraq bütün dini icmalara dövlət tərəfindən xüsusi diqqət göstərilir, mütəmadi olaraq maliyyə yardımı ayrılır.

Qorthart Günter Valter ölkəmizdə olduğu müddətdə tolerant mühitin əyani şahidi olduğunu, eyni zamanda Azərbaycanda mövcud olan dini tolerantlıq və mədəniyyətlərarası dialoq mühiti istiqamətində həyata keçirilən ardıcıl siyasətin bu gün bütün dünyada örnək olaraq qəbul edilməsinin təsadüfi olmadığını vurğulayıb.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda qonaq və Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri icmaya göstərilən qayğıya, problemlərinin həllində göstərilən dəstəyə görə Dövlət Komitəsinin rəhbərliyinə təşəkkürlərini bildiriblər.



# "AZƏRBAYCANIN DİNİ-MƏDƏNİ ABİDƏLƏRİNƏ QARŞI ERMƏNİ VƏHŞİLİYİ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Ermənilərin işğal olunmuş Azərbaycan ərazilərində insanlara, eləcə də tarixi, maddi-mədəniyyət, dini abidələrimizə qarşı törətdikləri vəhşiliklər barədə hər bir vətəndaş kifayət qədər məlumatlıdır. Əlbəttə, bu məlumatların, bu tarixi faktların dünya ictimaiyyətinə çatdırılması ümdə məsələdir və bu sahədə Heydər Əliyev Fondunun gördüyü ardıcıl və məqsədyönlü işlər, həyata keçirdiyi tədbirlər xüsusi önəm kəsb edir.

Bu fikirlər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair Tədbirlər Planı" çərçivəsində iyulun 3-də Şamaxı Cümə məscidində keçirilən "Azərbaycanın dini-mədəni abidələrinə qarşı erməni vəhşiliyi" mövzusundakı konfransda səsləndirilib.

Konfransda çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Gülnisə Ələkbərova, BBMM-nin icraçı direktor əvəzi Rəvan Həsənov, DQİDK-nın sədr müavini Gündüz İsmayılov və Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev tədbirin aktuallığını qeyd edərək, erməni saxtakarlığının ifşası baxımından əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarında dağıdılan, eyni zamanda ermənilərin özününküləşdirməyə cəhd göstərdikləri dini abidələrimizlə bağlı elmi müzakirə və diskussiyaların aparılması, bu barədə cəmiyyətin yeni araşdırmalar zamanı aşkar edilən tarixi faktlarla məlumatlandırılması daim diqqət mərkəzində olmalıdır.

Konfransda AMEA-nın Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Solmaz Rüstəmova-Tohidinin "1918-ci ildə Şamaxı şəhəri və qəzasında soyqırımına məruz qalan məscidlər", Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının şöbə müdiri Nazim Mustafanın "İrəvan şəhərində Azərbaycan abidələrinə qarşı erməni vandalizmi", AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktor müavini Xəzər Əliyevin "Azərbaycan incəsənətində soyqırımı mövzusu", "İçərişəhər" Dövlət-Tarix Memarlıq Qoruq İdarəsinin şöbə müdiri Kamil İbrahimovun "Qədim Şirvan eli və 1918-ci il soyqırımı", jurnalist-tədqiqatçı Mübariz Xəlilovun "Erməni vandalizmi və Pir Hüseyn Xanəgahı" mövzularında məruzələri dinlənilib. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tədqiqatçı alimlər konfransın keçirildiyi Cümə məscidinin 1918-ci ildə erməni vandalizminə məruz qaldığını, azərbaycanlılara qarşı soyqırımının törədildiyini, tarixi məkanlardan biri kimi divarlarında o illərin qanlı, dəhşətli izlərinin hələ də qaldığını söyləyiblər. Bütün bunların torpaqlarımızda sığınacaq tapan ermənilərin əsl xislətinin bariz nümunəsi olduğu diqqətə çatdırılıb.

Erməni silahlı dəstələri 1918-ci ildə təkcə Cənubi Qafqazda deyil, həm də yaxın Şərqdə ən qədim məscidlərdən sayılan Şamaxı Cümə məscidi ilə yanaşı, 13 məhəllə məscidini və 20-dən çox kənd məscidini dağıdıb. Şamaxı qəzasında 10 min 341 nəfər azərbaycanlı öldürülüb, onlardan 4365 nəfəri qadın və uşaq olub.

Məruzələr zamanı erməni vəhşiliklərini əks etdirən tarixi fotolar slaydlarla nümayiş etdirilib.

# Gündüz İsmayılov: "Bu küləyin hardan əsdiyi çox dəqiq bilinir"

"Dünən Gəncədə baş vermiş hadisənin əsl dindarlarla, dinlə və İslamla heç bir əlaqəsi yoxdur. Bu, Azərbaycan dövlətinə, xalqına və milli dövlətçiliyimizə qarşı təxribatdır. Dünənki hadisəyə sadə vətəndaşlarımızın, xüsusilə də ziyalı şəxslərin münasibəti bir daha onu göstərdi ki, sosial durumundan, təhsilindən, heç bir mədəni mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar dövlətçiliyimizin yanındadır".

Bunu Modern.az-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmaylov deyib.

Qurum rəsmisi bildirib ki, insanlarımız bu təxribatın arxasında kimlərin dayandığını artıq hiss ediblər: "Mən sosial şəbəkələrə göz gəzdirdikdən sonra belə bir qənaətə gəldim ki, Azərbaycan ziyalıları, xüsusilə media mənsubları bu küləyin haradan əsdiyini və onun istiqamətini çox dəqiq bilirlər və çox da dəqiq hədəfi tutublar. Bir daha təkrar edirəm ki, Gəncədə baş vermiş hadisə dövlətçiliyimizə və xalqımıza qarşı təxribatdır. Bu hadisəni törədənlər və arxasında duran şəxslər mütləq öz cavablarını almalıdırlar və alacaqlarına da inanıram. Əsl dindarlar təəssübkeş müsəlman olduqları kimi, həm də təəssübkeş azərbaycanlıdırlar və milli dövlətimizin də təəssübkeşləridir. Bu cür hadisələri din adına yazmaq olmaz. Bu, din pərdəsi altında və dindən istifadə edərək dövlətimizə qarşı həyata keçirilən məkrli bir plandır".

# “HEYDƏR ƏLİYEV: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ MƏNƏVİ DƏYƏRLƏR”

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə iyulun 19-da Bakıda “Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər” mövzusunda konfrans keçirilib.




Konfransda Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyi, Fondun Himayəçilər Şurasının üzvləri, deputatlar, Azərbaycan Milli Elmlər Akademiyasının təmsilçiləri, gənclər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri açan Fondun icraçı direktoru Mehman İsmayılov Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının formalaşmasındakı, mənəvi dəyərlərin təbliğindəki, eyni zamanda gənclərin Ulu Öndərin dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətindəki əvəzsiz rolu barədə danışıb. O bildirib ki, Fondun əsas fəaliyyət istiqaməti Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycançılıq ideologiyasını təbliğ etməkdir. İcraçı direktor deyib ki, ölkəmizdə vaxtilə bu sahədə atılan addım Azərbaycanın dünyaya inteqrasiyasında xüsusi yerə malikdir. Azərbaycançılıq ideologiyası tolerant mühitin formalaşmasına geniş imkanlar yaradıb. Milli-mənəvi dəyərlər illərlə formalaşan sistemdir, Ulu Öndərin həyata keçirdiyi siyasət nəticəsində bu sistemin yenidən inkişafına nail olunub.

Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyət istiqamətlərindən danışan M.İsmayılov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə yaradılan Fond mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərir. Fondun tərkibində Mənəvi Dəyərlərin Təbliği üzrə Məşvərətçi Komitənin yaradıldığını bildirən icraçı direktor mənəvi dəyərlərin və Azərbaycançılıq məfkurəsinin təbliği ilə bağlı maarifləndirici tədbirlərin, müxtəlif fond və mərkəzlərlə birgə seminarların, konfransların və xeyriyyəçilik fəaliyyətinin təşkili, kitab nəşri, eyni zamanda televiziya kanallarında və radiolarda mənəvi dəyərlərlə bağlı verilişlərin və sosial çarxların verilməsi istiqamətində işlərin davam etdirildiyini deyib.

“Mənəvi dəyərlərin təbliği işində Heydər Əliyev siyasəti” adlı məruzə ilə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, “Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev qeyd edib ki, ideologiya bir xalqın adət-ənənəsini, həyat tərzini, yaşam formasını və fəaliyyət istiqamətlərini özündə ehtiva edən baxışlar sistemidir. O, insanların gündəlik şüurunu nəzəri-konseptual səviyyəyə qaldıraraq, məxsus olduğu sosiumun inkişaf yolunda digər həmvətənləri ilə sıx birləşməyi həyata keçirir. İdeologiya insanlarda milli düşüncəni formalaşdırmaqla ayrı-ayrı sosial sinif və qrupları eyni məqsəd və hədəf ətrafında toplayır. Milli düşüncəni mənimsəmiş hər bir fərd sonda ümumi milli düşüncəyə sahib toplumu əmələ gətirir. Beləliklə, kütləvi şüurun formalaşmasında iştirak edən ideologiya cəmiyyəti vahid ideya ətrafında birləşdirir.

Fondun Himayəçilər Şurasının üzvü bildirib ki, vahid siyasi subyekt kimi dövlətin gələcək inkişaf sektorları ilə bağlı ictimai-siyasi proseslərdə aktiv iştirak edən cəmiyyətimiz ümumi mövqedən çıxış edərək azərbaycançılığın siyasi şüura təsir gücünü ortaya qoyur. Məhz Azərbaycançılıq ideologiyasını mənimsəmiş cəmiyyətimiz ölkənin inkişafı üçün doğru yolu seçməkdə kütləvi siyasi iradə və davranış ortaya qoyur.

Sonra Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu "Azərbaycançılıq ideologiyası multikulturalizmin siyasi-ideoloji hamisi kimi" mövzusunda məruzə ilə çıxış edərək vurğulayıb ki, millət tarixi inkişaf prosesində meydana çıxan sosial identifikasiyadır. Bunu müəyyən edən də elə məhz mənəvi dəyərlərdir. Deputat qeyd edib ki, milli-mənəvi dəyərlər hər bir xalqın inkişafında əldə etdiyi intellektual müstəvidə proyeksiya olunan hadisədir. Azərbaycan cəmiyyətində insanlar etnik, irqi, dini mənsubiyyətinə görə fərqli ola bilər. Lakin onları burada bir-birinə bağlayan dəyərlər eynidir. Əgər biz yaşadığımız məkanda xalq kimi formalaşmasaydıq, var olmaq üçün mücadilə etməsəydik o zaman indiki keyfiyyətlərə malik olmazdıq.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov vurğulayıb ki, Azərbaycançılıq ideologiyası bir fənn olaraq məktəblərdən təbliğ olunmalıdır. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin gücləndirilməsinə ehtiyac var.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov bildirib ki, Ulu Öndərin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycançılıq ideologiyasının meydana gəlməsi xalqımızı zərərli tendensiyalardan qorudu. Gəncliyin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayan rektor qeyd edib ki, hər birimiz Azərbaycançılıq ideologiyasının ətrafında birləşməli, azərbaycanlı olduğumuzu unutmamalıyıq.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov çıxışında mənəvi dəyərlərin qorunmasının Azərbaycan xalqının gələcəyi üçün vacib olduğunu diqqətə çatdırıb. Bildirib ki, ictimai, əxlaqi, dini dəyərlər, eləcə də adət-ənənələr birləşərək bir xalqın mənəvi dəyərlər sistemini meydana gətirir.

Daha sonra AMEA-nın elmi işçisi Əli İbrahimovun “Azərbaycançılıq ideologiyasının konseptual aspektləri”, AMEA-nın böyük elmi işçisi Anar Qafarovun “Funksional və sensual vəhdət aspektindən Heydər Əliyevin milli strategiyasının təhlili” mövzularında məruzələri dinlənilib.

# «Azərbaycanın dövlət-din modeli və gənclər» mövzusunda tədbir keçirilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondu və YAP Gənclər Birliyinin birgə təşkilatçılığı ilə iyulun 20-də “Azərbaycanın dövlət-din modeli və gənclər” mövzusunda tədbir keçirilib.

Yeni Azərbaycan Partiyasının qərargahında baş tutan tədbirdə dini dəyərlərin qorunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və maarifçilik işinin genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.

DQİDK-nın şöbə müdiri Amil Cavadov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətləri barədə danışıb. O, Azərbaycanda dövlət-din münasibətlərinin uğurla tənzimləndiyini, qanunvericilik bazasının formalaşdırıldığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanda dini və mənəvi azadlıq təmin olunub, bütün dinlərin nümayəndələri azad şəkildə öz ibadətlərini həyata keçirirlər. Təəssüf ki, Azərbaycanda mövcud olan dini əmin-amanlığı pozmağa cəhd edən qüvvələr var. Amma buna baxmayaraq inanırıq ki, sağlam düşüncəli vətəndaşlarımız bu məkrli planların həyata keçirilməsinə imkan verməyəcək, bu sahədə fəal olacaqlar. Hər bir Azərbaycan vətəndaşı uğurlu dövlət-din modelini qorumalıdır.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov gənclərlə aparılan maarifçilik işindən danışıb. O deyib ki, bu istiqamətdə bir sıra işlər görülüb və din tarixi, həqiqi inanc anlayışları ilə bağlı tədbirlər bundan sonra da davam etdiriləcək.

Fondun rəhbəri qeyd edib ki, Azərbaycanda dünya ölkələrinə nümunə göstəriləcək dövlət-din münasibətlərinin xüsusi modeli mövcuddur. Bu modelin əsasında Azərbaycan xalqının xarakterik xüsusiyyəti kimi formalaşmış tolerantlıq və multikulturalizm kimi ülvi dəyərlər dayanır.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev isə bildirib ki, xalqımız milli-mənəvi dəyərlərinə, İslam ənənələrinə hər zaman hörmətlə, sədaqətlə yanaşıb. Azərbaycan xalqı ən çətin və ağır tarixi dövrlərdə dini ənənələrini qoruyaraq günümüzədək gətirib çıxarıb. Kənardan ölkəmizə idxal olunmasına çalışılan ideologiyalar qətiyyətlə rədd edilir. Əlbəttə, fanatik ideyaların təsiri altına düşən vətəndaşlarımız da var. Lakin ölkə səviyyəsində onların sayı olduqca azdır və cəmiyyətimiz bəlalərinin ardınca getməkdə deyil, onların islah olunmasında maraqlıdır.

Tədbir müzakirələrlə davam etdirilib.

# İSLAM DİNİ FİTNƏ VƏ FƏSAD TÖRƏTMƏYİ ƏN BÖYÜK CİNAYƏT HESAB EDİR

"Son günlər ölkəmizin ikinci böyük şəhəri olan, qədim ənənələrə malik Gəncə şəhərində baş verən hadisələr cəmiyyət içində ciddi narahatlıq doğurmaqdadır. Gəncədə törədilmiş terror hadisəsi və bu hadisədən istifadə edərək ictimai-siyasi sabitliyi pozmağa cəhd edən anti-milli, təxribatçı qüvvələrin hərəkətləri xalqımız tərəfindən birmənalı şəkildə pislənir".

Bunu Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib. O, təəssüflə qeyd edib ki, Gəncədəki hadisələri dini-mənəvi müstəviyə çəkməyə cəhd edənlər də var: "Ölkəmizdə əsrlər boyu formalaşmış dini-mənəvi dəyərləri bu kimi məkrli niyyətlərə, siyasi məqsədlərə alət edən daxili və xarici dairələr sadəcə ictimai-siyasi sabitliyimizi, dövlətçiliyimizi və xalqımızı deyil, eyni zamanda İslam dinini də hədəfə almışlar. İslam dininin təmiz, pak dəyərlərini, ümumbəşəri prinsiplərini, ülviliyini bu qədər çirkin və mənəviyyatsız hərəkətlərlə eyniləşdirmək bu dinə ən böyük haqsızlıqdır.

M.İsmayılov vurğulayıb ki, "Bir insanı öldürmək bütün bəşəriyyəti öldürmək kimidir" anlayışını ortaya qoyan İslam dini fitnə-fəsad törətməyi ən böyük cinayət hesab edir. Şəhidlərimizin qanı bahasına və xalqımızın müdrikliyi nəticəsində əldə edilmiş müstəqilliyimiz nə qədər dəyərlidirsə, günümüzdə bu müstəqilliyi qorumaq, möhkəmləndirmək və çiçəkləndirmək də o qədər dəyərlidir: "Heç kim unutmamalıdır ki, müstəqilliyin ilk illərindən fərqli olaraq bu gün güclü Azərbaycan dövləti və bu dövləti göz bəbəyi kimi qoruyan güclü Azərbaycan xalqı var. Ulu Öndər Heydər Əliyevin zəhməti ilə ərsəyə gəlmiş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi müstəqil Azərbaycan bu kimi cılız və ləyaqətsiz hərəkətlərin qarşısını qətiyyətlə almağa qadirdir və alacaqdır. Milli-mənəvi dəyərlərimizə ləkə vurmaq, dövlətçiliyimizi zəiflətmək və sabitliyimizi pozmaq istəyənlər heç vaxt niyyətlərinə nail ola bilməyəcəklər".

Fondun icraçı direktoru Gəncə şəhərində baş vermiş terror hadisəsini qətiyyətlə pisləyib, baş vermiş təxribatın qarşısını alarkən şəhid olmuş iki polis zabitimizə Allahdan rəhmət diləyib, ailələrinə səbr arzulayıb.



# DİNİ MAARİFLƏNDİRMƏ İŞİ SİSTEMLİ ŞƏKİLDƏ HƏYATA KEÇİRİLİR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində həyata keçirdiyi tədbirlər barədə danışıb.

Bildirib ki, dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini fanatizmə, radikalizmə qarşı effektiv mübarizənin aparılması, ölkəmizdə tarixən mövcud olan multikultural mühitin, birgəyaşayış ənənələrinin qorunması və təşviqi istiqamətində maarifləndirmə işinin aparılmasına və təşkilinə xüsusi diqqət yetirilir: "Bu məqsədlə Dövlət Komitəsi aidiyyəti dövlət qurumları, qeyri-hökumət təşkilatları, həmçinin kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edir. Ölkə əhalisinin təqribən 96 faizi müsəlmanlardan ibarətdir və Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi ilə birgə dini maarifləndirmə işi aparmaq məqsədilə silsilə tədbirlər həyata keçirir. Eyni zamanda, din xadimlərinə maddi dəstək göstərilir.

S.Mirzəyev vurğulayıb ki, ötən illərdə olduğu kimi, cari ildə də dini maarifləndirmə işi sistemli şəkildə həyata keçirilir. Dövlət Komitəsi sədrinin əmrinə əsasən, təkcə bu ilin yeddi ayı ərzində Bakı şəhərində 8 konfrans, 1 respublika müşavirəsi, bölgələrdə isə 8 regional konfrans, 11 seminar-müşavirə və 9 seminar-treninq keçirilib. Həmçinin maarifləndirmə istiqamətində işlər KİV, o cümlədən televiziya kanalları və sosial media vasitəsilə də aparılır. Məsələn, həftədə bir dəfə İctimai TV-də "Din və Cəmiyyət" verilişi, Space TV-də isə "İnam" verilişi efirə çıxır. Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gəlmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi, İslam dininin sülhsevərliyindən, tolerantlığından bəhs edən "Üfüqdəki gələcək" filmi mütəmadi nümayiş etdirilir. Maarifləndirmə sahəsində işlər Dövlət Komitəsinin mətbu orqanı olan "Dövlət və Din" ictimai fikir toplusu, "Cəmiyyət və Din" qəzeti, nəşr olunan kitab, broşür və digər maarifləndirmə vasitələri ilə də həyata keçirilir. Eyni zamanda, Azərbaycan Ordusu və digər silahlı birləşmələrdə, təhsil müəssisələrində, cəzaçəkmə müəssisələrində, ayrı-ayrı müəssisələrin kollektivləri arasına dini maarifləndirmə xarakterli tədbirlər baş tutur. İlin əvvəlindən indiyədək Dövlət Komitəsi digər qurumlarla birgə 350-dən artıq tədbir keçirib. Məsələn, Dövlət Komitəsi və Təhsil Nazirliyinin yerli strukturları tərəfindən bu ilin altı ayı ərzində təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi məqsədilə 160-dan artıq birgə tədbir təşkil edilib. Bu qəbildən olan tədbirlərin bundan sonra da mütəmadi davam etdirilməsi nəzərdə tutulur".

Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdirinin sözlərinə görə, ölkəmizdə milli-mənəvi dəyərlərimizə yad, zərərli dini qrupların olması narahatlıq doğurur: "Bu cür cərəyanların ölkəmizə ayaq açması Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk dövrlərə təsadüf edir. Həmin dövrdə Azərbaycanda əhalinin böyük hissəsinin dini bilikləri, demək olar ki, yox səviyyəsində idi, eyni zamanda dini təhsil sahəsində kifayət qədər boşluqlar vardı. Üstəlik, din sahəsində mütəxəssislərin sayı çox az idi, yerli müəlliflərin əsərləri tələbatı ödəmirdi. Bütün bunlar dini dəyərlərimizə yad, radikal cərəyanların yayılması üçün münbit şərait yaratmışdı. Lakin sonrakı dövrlərdə dövlət-din münasibətləri sahəsində görülən işlər bu proseslərin qarşısını əhəmiyyətli dərəcədə aldı. Xalqımızın milli-mənəvi, o cümlədən dini dəyərlərinə qayğı göstərilməsi, ölkədə dini dözümlülük və tolerantlıq dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu bu siyasət onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi, həmçinin ötən ilin oktyabr ayında Mənəvi Dəyərlərin Təbliği Fondunun və bu ilin fevral ayında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dövlətimizin dinimizə böyük dəyər verdiyinin bariz göstəricisidir. Təkcə ötən il ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 600-dən artıq dini maarifləndirmə sahəsində tədbir keçirilib. Görülən çoxsaylı işlərə baxmayaraq, bu sahədə olan təhdidlərlə bağlı maarifləndirmə işlərinin aparılmasına ehtiyac hələ də qalmaqdadır".

Sadiq Mirzəyev hesab edir ki, Gəncə hadisələri də göstərdi ki, radikal və ekstremist qrupların Azərbaycanda sosial bazası yoxdur: "Xaricdən idarə olunan və din pərdəsi altında gizlənmiş bir qrup ekstremist tərəfindən planlı şəkildə həyata keçirilmiş bu terror aktı cəmiyyətin müxtəlif təbəqələri, xüsusilə dindar kəsim tərəfindən ciddi etirazla qarşılandı. Bu baxımdan baş vermiş hadisələri birbaşa dinlə əlaqələndirmək yanlışdır. Ona görə də bu hadisələrlə dini maarifləndirmə arasında hansısa əlaqənin aparılması doğru deyil. Bu, daha çox bəzi dairələrin dindən sui-istifadə edərək öz geopolitik maraqlarını həyata keçirmək cəhdləridir. Yaxın Şərqdə baş vermiş hadisələr buna bariz nümunədir. Lakin bu sahədə maarifləndirmə işi davam etdirilməlidir. Bu baxımdan Dövlət Komitəsi qeyd olunan tədbirlərlə yanaşı, kütləvi informasiya vasitələri ilə işini daha sıx qurmağı və yeni televiziya proqramları açmağı, eyni zamanda yeni kitabların çapını planlaşdırır. Dini sahədə baş verən proseslərin dinamikliyi dini maarifləndirmə ilə bağlı yeni yanaşmaların ortaya çıxmasını, xüsusilə onların keyfiyyət baxımından gücləndirilməsini şərtləndirir. Dövlət Komitəsinin tabeliyində yaradılmış Azərbaycan İlahiyyat İnstitutunun, eləcə də Mənəvi Dəyərlərin Təbliği Fondunun dini maarifləndirmə işinin keyfiyyət baxımından daha da yüksəldilməsinə böyük töhfə verəcəyini düşünürük. Xüsusilə dini radikalizmə qarşı ideoloji müstəvidə aparılan mübarizədə dindən sui-istifadə edilməsi, müqəddəs mətnlərin kontekstdən qoparılaraq əsl mahiyyətindən fərqli formada təqdim olunması hallarına rast gəlinir. Bu baxımdan həm Dövlət Komitəsi, həm də onun tabeliyində olan qurumlar tərəfindən müxtəlif formatlarda elmi-praktiki konfrans, seminar, "dəyirmi masa" və s. tipli tədbirlər daha da genişləndirilir".

# “Yerusəlim Post” qəzetində “Avropa İttifaqı Azərbaycanın dini tolerantlıq modelini öyrənir” başlıqlı məqalə dərc olunub

İsrailin nüfuzlu “Yerusəlim Post” qəzetində “Avropa İttifaqı Azərbaycanın dini tolerantlıq modelini öyrənir” başlıqlı yazı yayımlanıb.

Məqalədə 2018-ci ilin 26-28 iyun tarixlərində Azərbaycanda fəaliyyət göstərən dini icma üzvlərindən ibarət nümayəndə heyətinin səfərinə toxunulur. Qeyd edilir ki, Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında əməkdaşlığın növbəti prioritetlərindən biri də ölkəmizin dövlət-din münasibətləri sahəsində əldə eetdiyi nümunəvi təcrübənin bölüşdürülməsidir. Həmçinin məqalədə dini və mədəni müxtəlifliyin idarə edilməsi sahəsində uğurlu siyasi təcrübəyə malik olan və dünyəvi müsəlman ölkəsi Azərbaycanın həm İslam, həm də Qərb dünyası üçün nümunəvi tərəfdaş olduğu vurğulanıb. Dini icma üzvlərinin Avropa İttifaqının nümayəndələri ilə görüşlərinə toxunan müəllif Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsində Aİ-nin səylərinin daha da gücləndirilməsinin vacibliyini bildirib.

Qeyd edək ki, məqalənin müəllifi Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini Rəfi Qurbanovdur.


Gurbanov Rafi

EU learns Azerbaijani model of religious tolerance

Share on Facebook | Twitter | Google Plus

Share on Facebook | Share on Twitter

Azerbaijan`s system of government, based on secular state institutions, is a rare example in a Muslim-majority country. Preserving secular nature and values of the country is a priority for the government. Azerbaijan has been the first secular Muslim republic, established in 1918, before the Soviet invasion.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ORDUSUNDA DİNİ MƏSƏLƏLƏR

Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoymuş, xalqımızın qəlbində istiqlal eşqini yaradaraq ölkəmizin gələcək müstəqilliyi üçün zəmin hazırlamışdır. Cümhuriyyət qurucularının misilsiz xidmətləri sayəsində ölkədə son dərəcə böyük əhəmiyyətə malik tarixi addımlar atılmış və böyük uğurlar əldə edilmişdir. Bu uğurlardan biri də qısa müddət ərzində döyüşkən ordunun yaradılması olmuşdur. Belə bir ordunun yaradılması yalnız müstəqil dövlət quruculuğu baxımından deyil, həm də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünə və mövcudluğuna qarşı istiqamətlənmiş real təhlükələrin qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə qarşıda dayanan vəzifələrin səmərəli həllinə nail olmaq üçün Azərbaycan hökuməti tərəfindən müvafiq siyasət hazırlanmış, dövlətin və xalqın bütün potensialı bu vəzifələrin icrasına səfərbər edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradılması milli bir vəzifəyə çevrildi və bu prosesin milli dəyərlər üzərində aparılması milli ordunun qısa zaman ərzində formalaşmasının əsas səbəblərindən biri oldu. Azərbaycan hökuməti və Hərbi Nazirliyin rəhbərliyi dövlətin müstəqilliyinə sədaqətli olan milli ordunun sağlam ruhda formalaşması üçün xalqın mübariz milli keyfiyyətlərinin ordunun şəxsi heyətinə aşılanmasına xüsusi diqqət yetirirdi və bununla bağlı müvafiq tədbirlər də həyata keçirilirdi. Azərbaycan dilinin ordunun dövlət dilinə çevrilməsi, qəhrəmanlıq tariximizin öyrənilib təbliğ edilməsi, ordu ilə xalq arasındakı əlaqələrin gücləndirilməsi, milli dəyərlərin ordu daxilində təbliğinin genişləndirilməsi və bu kimi məsələlər belə tədbirlərdən idi.

Cümhuriyyət ordusu daxilində milli-mənəvi keyfiyyətlərin formalaşdırılmasında dini dəyərlərə ehtiramla yanaşılmasına da xüsusi diqqət yetirilirdi. Bu zaman məsələyə prinsipial münasibət nümayiş etdirilir, dini dəyərlərin təbliğində Vətənə sədaqət hisslərinin aşılanmasına xüsusi yer verilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin əvəzsiz hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov da bilirdi ki, qoşunların şəxsi heyətinin mənəvi cəhətdən kamilləşməsində dini dəyərlərin xüsusi yeri var. Dini dəyərlərə ehtiramla yanaşılması əslində ordu ilə xalq arasında bağlılığın gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi. Ona görə də xidmətə çağırılmış gənclərə dini ayinlərin yerinə yetirilməsi üçün hər cür şərait yaradılırdı. Bu sahədə bir nizamlılıq yaratmaq üçün alayların və diviziyaların, eləcə də Hərbi Nazirliyin ştatlarında din xadimləri fəaliyyət göstərirdi. Nüfuzlu din xadimləri ordu sıralarına hərbi xidmətə çağırılır və şəxsən Hərbi nazirin əmri ilə hərbi hissələrə təyin olunurdular. Onlar hərbi məmurlar kimi təminata qoyulur və hərbi hissə komandirlərinin köməkçiləri qədər vəzifə maaşı alırdılar. Təlim-tərbiyə proqramına din xadimlərinin əsgərlərlə söhbəti də daxil edilirdi. Onlar hərbi xidmətin müqəddəsliyi, dini kitablarda hərbi xidməti borcun yerinə yetirilməsinin vacibliyi və fəzilətləri barədə söhbətlər edirdilər. Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov orduya qəbul edilmiş din xadimlərinin qarşısında dayanan başlıca vəzifənin əsgərlərin dini-mənəvi tərbiyəsi olduğunu vurğulayır və bununla bağlı tələb edirdi ki, həmin vəzifələrə nail olunması üçün ilk növbədə din xadimləri özləri qanunun bütün tələblərinin icrasının nümunəsi olmalıdırlar.



Milli orduya qəbul olunan əsgərlərin hərbi andı hərbi hissə mollalarının rəhbərliyi altında aparılırdı. Andiçmə mərasimlərində hərbi hissənin din xadimi şəxsi heyət qarşısında çıxış edir, hərbi andın mahiyyətini, hərbi xidmətin sədaqətli icrası üçün şəriətin tələblərindən irəli gələn vəzifələri şəxsi heyətə açıqlayırdılar.

Milli ordunun hissə və hərbi məktəbləri üçün layihəsi təsdiq edilmiş döyüş bayraqlarında da İslam dininə bağlılıq qorunub saxlanmışdı. Əvvəla, bu bayraqların kənarlarının haşiyələnməsində Şərqin böyük sərkərdəsi Əmir Teymurun qəbrinin üzərindəki elementlərdən istifadə olunmuşdu. Həmin elementlər də İslam dəyərlərini əks etdirdiyi üçün döyüş bayraqlarına gətirilmişdi. Digər tərəfdən, döyüş bayraqlarının bir üzündə Qurani-Kərimin “Saff” surəsinin 13-cü ayəsi həkk olunmuşdu. Həmin ayə belə idi: **“(Sizi) ... Allah dərgahından kömək və yaxın qələbə gözləyir...”**

Hərbi nazirlik mənəvi dəyərlərin əhəmiyyətini qiymətləndirərək hərbi qulluqçulara növbəti hərbi rütbələrin verilməsinin məhz iksini dini bayramlara salmışdır. Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 nömrəli əmrində hərbi qulluqçulara növbəti rütbələrin verilməsi qaydaları müəyyən olunarkən hərbi rütbələrin Novruz, Ramazan və Qurban bayramında verilməsi göstərilmişdir.

Hərbi Nazirliyin rəhbərliyi milli ordu daxilində digər dinlərə qarşı da tolerant yanaşırdı. Məhz buna görə idi ki, həm xristian dininə mənsub hərbi qulluqçuların öz dini mərasimlərinin icrası üçün şərait yaradılır, həm də xristian bayramlarında bu dinə mənsub hərbi qulluqçulara istirahət verilirdi.

Hərbi qulluqçular vəfat edən zaman son mənzilə böyük hörmət və ehtiramla yola salınırdılar. Şəhid olmuş və ya hərbi xidməti müddətində vəfat etmiş hərbi qulluqçuların son mənzilə yola salınması zamanı dini normalara riayət edilməsinə də Hərbi Nazirliyin rəhbərliyi son dərəcə ciddi diqqət yetirirdi. Mərhumun dəfninə göstərilən ən adi səhlənkarlıq hərbi qulluqçuların qayğısına, onların dini, ənənəvi tərbiyəsinə göstərilən səhlənkarlıq kimi qiymətləndirilirdi. Dəfn tədbirlərinin icra edilməsi üçün Nazirliyin və hərbi hissələrin smetasında xüsusi xərclər də nəzərdə tutulmuşdu.

Buna misal olaraq, xidməti vəzifəsinin icrası zamanı yatalaq xəstəliyindən vəfat etmiş 3-cü Şəki süvari alayının podpolkovniki Şahverdi xan Ziyadxanovun dəfninin təşkili üçün Hərbi nazirin imzaladığı əmri göstərmək olar. Əmrdə göstərilirdi ki, mərhumun evinə hərbi naryad göndərilsin. Bu naryada 3-cü Şəki süvari alayının mövcud olan bütün şəxsi heyəti, artilleriya briqadasının bir artilleriya batareyası, bir bölük yunker və orkestr daxil idi.

Digər zabitlərin də dəfni belə hörmət və ehtiramla icra edilirdi.

Hərbi nazirliyin rəhbərliyi qoşunların şəxsi heyətinin mənəvi əhval ruhiyyəsinə, xidmətə qarşı formalaşan münasibətinə təsir göstərə biləcək bütün mövcud amillərlə yanaşı, dini amilin də nəzər almasını və onların qarşılıqlı şəkildə əlaqələndirilməsini vacib sayırdı və bu istiqamətdə fəal işlər görürdü. Məhz Cümhuriyyət ordusunun mənəvi ovqatında nəzərəçarpacaq dəyişikliklərin yaranması da Hərbi Nazirliyin məqsədyönlü şəkildə apardığı bu ardıcıllığın və sistemliliyin nəticəsi idi.

**Polkovnik Atamalı ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti**

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**Göyçay rayonu Kürdəmiş kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-789
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Kürdəmiş kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Cavid Rahim oğlu Şıxaliyev

**Abşeron rayonu Hökməli qəsəbəsi "Hacı Məhəmməd Həsənbəy Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-790
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Abşeron rayonu, Hökməli qəsəbəsi, Babək küçəsi 15A, "Hacı Məhəmməd Həsənbəy Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şahlar Əfqan oğlu Pircanov

**Bakı şəhəri Sabunçu rayonu Maştağa qəsəbəsi "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118B-791
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Seyid İbad Ağa küçəsi, bina 67, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məmməd Baba oğlu Quliyev

**Cəlilabad rayonu Əliabad kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-792
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Cəlilabad rayonu, Əliabad kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Fazil Sabir oğlu Haxverdiyev

**İmişli rayonu Göbəktala kəndi "Həzrəti Əbülfəz" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-793
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Göbəktala kəndi, "Həzrəti Əbülfəz" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ramazan Zeynal oğlu Əzimov

**Bakı şəhəri Suraxanı rayonu Bülbülə qəsəbəsi Ağabalabəy Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118B-794
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Suraxanı rayonu, Bülbülə qəsəbəsi, M.Bəydəmirov küçəsi, ev 40 A, Ağabalabəy Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Tofiq Meybulla oğlu Babayev

**İmişli şəhər "Həzrəti İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-795
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli şəhəri, Xəzər küçəsi, "Həzrəti "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Azad Atdıxan oğlu Zeynalov

**Kürdəmir rayonu Qarabucaq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-796
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Kürdəmir rayonu, Qarabucaq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rəşad Mətləb oğlu Mehdiyev

**Bakı şəhəri Suraxanı rayonu Əmircan qəsəbəsi "İmam Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118B-797
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, Molla Pənah Vaqif küçəsi, ev 9, "İmam Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Hacıbala Əlişaban oğlu Eyvazov

**Ucar rayonu Təzə Şilyan kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118D-798
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu, Təzə Şilyan kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Zəfər Rafiq oğlu Şərifov

**Yardımlı rayonu Şıxlar kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118D-799
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Yardımlı rayonu, Şıxlar kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Sadıq Təzəxan oğlu Talıbov

**Masallı rayonu Lürən kəndi "Yusifli" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118C-800
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Lürən kəndi, "Yusifli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rizvan Məmməd oğlu Qasımov

**Bakı şəhəri Suraxanı rayonu Yeni Suraxanı qəsəbəsi "Heydər" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118B-801
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, 14 iyul küçəsi, ev 12 A, "Heydər" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Azad Əliağa oğlu Rəhimov

**İmişli rayonu Qaravəlli kəndi "Şıxlar" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-802
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Qaravəlli kəndi, "Şıxlar" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Cabbar Məmmədağa oğlu Vəliyev

**İmişli şəhər "İmam Rza" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-803
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli şəhəri, Eldar İbrahimov küçəsi N21, "İmam Rza" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Miradəm Əliağa oğlu Abbasov

**Qobustan rayonu Cəmcəmli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118C-804
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qobustan rayonu, Cəmcəmli

kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Qüdrət Nəcəfqulu oğlu Əzizov

**Saatlı rayonu Mircəlalkənd kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118C-805
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Mircəlalkənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mirnemət Seyidsədi oğlu Mircəlali

**Lənkəran rayonu Boladi kəndi Seyidoba məhəllə məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118C-806
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Boladi kəndi, Seyidoba məhəllə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Zamin Ələkbər oğlu Məmmədov

**Zərdab rayonu Otmanoba kəndi "İmam Əli" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118D-807
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Zərdab rayonu, Otmanoba kəndi, "İmam Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Nadir Şahvəli oğlu Hüseynov

**Qəbələ rayonu Bayramkoxa kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-808
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qəbələ rayonu, Bayramkoxa kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elşad Ata oğlu Kazımov

**Qəbələ rayonu Dızaxlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-809
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qəbələ rayonu, Dızaxlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Araz Ədil oğlu Əzənmədov

**Saatlı rayonu Qara Nuru kəndi "Fatimeyi-Zəhra" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118C-810
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Qara Nuru kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mahir Çingiz oğlu Abıyev

**Qəbələ rayonu Böyük Pirəli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-811
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qəbələ rayonu, Böyük Pirəli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elxan Məhəmmədiyə oğlu Mahmudov

**Qəbələ rayonu Bum qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-812
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qəbələ rayonu, Bum kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ayaz Qnyaz oğlu Osmanov

**Saatlı şəhəri "Şeyx Yusif" məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118C-813
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı şəhəri, Ş.Yusif küçəsi 1, "Şeyx Yusif" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Həmzağa Yusif oğlu Əzizov

**Qəbələ rayonu Nohurqışlaq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyul 2018-ci il
Qeydiyyat №-si: 100118A-814
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Qəbələ rayonu, Nohurqışlaq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İlham Əlixan oğlu Məmmədov

# Dəyişiklik

**Zaqatala şəhər məscidi dini icması**
Qeydiyyat tarixi: 27 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 323

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbrahimov İbrahim Cərulla oğlu, İbrahimov Ömər Carulla oğlu, Süleymanov Hacıömər Abdulməcid oğlu, Şixsəfiyev Məhəmmədnəbi Nurudinoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Qocayev Rasul Şaban oğlu, İsayev Allahverdi Həmzətoviç, İbrahimov Rəşad Hidayət oğlu, Əkbərov Zaur Tərlan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

İbrahimov İbrahim Cərulla oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və İbrahimov Rəşad Hidayət oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2018-ci il

**Astara rayonu Pensər kəndi "Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 16 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 441

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şabanov Dadaş Ağabala oğlu, Cəfərov Qürbət Muğabil oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Rüstəmov Elman Fərhad oğlu, Məmmədov Əbülfət Qıncıəli oğlu, Səmədov Tofiq Qaydi oğlu, Babayev Mirzəli Səfər oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2018-ci il

# Elan

Qobustan rayonu Bəklə kənd dini icmasının (02.04.2002-ci il tarixli, 85 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 iyun 2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir

***

Kürdəmir rayonu Ərəbxana kənd dini icmasının (1305A1- 330 nömrəli, 29.07.2005-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 24 fevral 2018-ci il tarixli ümumi yığıncağında 3 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Kürdəmir rayonu Ərəbxana kənd dini icmasına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 1305A1- 330 nömrəli, 29.07.2005-ci il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Kürdəmir rayonu Axtaçı Sovetliyi Daykazımlı kənd dini icmasının (127 nömrəli, 18.12.1996-cı il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 fevral 2018-ci il tarixli ümumi yığıncağında 3 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Kürdəmir rayonu Axtaçı Sovetliyi Daykazımlı kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 127 nömrəli, 18.12.1996-cı il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

CƏMİYYƏT və DİN
№ 07 (324) / İYUL 2018-ci il

# Azərbaycan İlahiyyat İnstitutu loqo müsabiqəsi elan edir



Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb.

İnstitutun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. İnstitut bu hədəf və məqsədlər istiqamətində öz korporativ loqosunun müəyyən edilməsi məqsədilə müsabiqə elan edir.

Müsabiqənin şərtləri aşağıdakılardır:

1. Müsabiqədə harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı iştirak edə bilər. İştirakçılar müsabiqədə fərdi və ya müştərək qaydada təmsil oluna bilərlər;
2. Loqo müasir və beynəlxalq bir imicə sahib olmalı, Aİİ-nin dünyəvi bir elm və tədqiqat mərkəzi olduğu burada öz əksini tapmalıdır. Loqoda, həmçinin multikulturalizm və tolerantlıq dəyərlərini əks etdirən elementlər də yer ala bilər;
3. Müsabiqədə yalnız indiyə qədər istifadə olunmayan və hər hansı digər loqotiplərin elementlərini təkrarlamayan nümunələr iştirak edə bilər. Loqo dizaynları müvafiq komissiya tərəfindən qiymətləndirildikdən sonra qalib elan ediləcək;
4. Loqonun eskizi A4 formatda kağızda və ya CD disk şəklində Bakı şəhəri, Əhməd Cəmil 41 A ünvanına (Azərbaycan İlahiyyat İnstitutunun inzibati binası), eləcə də PDF formatında ilahiyyatinstitutu@gmail.com elektron ünvanına və ya İnstitutun rəsmi facebook səhifəsinə təqdim edilməlidir;
5. Mükafat fondu 300 AZN nəzərdə tutulub;
6. Loqo nümunələrinin son təqdimetmə tarixi 05.08.2018-ci il saat 24:00-a qədərdir;
7. Müsabiqənin qalibi 2018-ci il avqustun 10-da elan olunacaqdır.

# İnstitutun məlumat kitabçası çap edilib

Azərbaycan İlahiyyat İnstitutunun məlumat kitabçası çap edilib. Məlumat kitabçasında Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişaf etdirilməsi, eləcə də bu sahədə yüksək ixtisaslı kadrların hazırlanması məqsədilə yaradılan İnstitutda təhsilalmanın üstünlükləri barədə ətraflı məlumat verilib. Tələbələrin beynəlxalq tələbə mübadilə proqramlarında iştirak etməsi üçün yaradılacaq şərait, məzunların dövlət xətti ilə xaricdə təhsilalma imkanları vurğulanıb. Eyni zamanda, ali təhsil ocağına qəbul qaydaları dəqiqliklə izah edilib.




## Yadigar söz

**Elmdə irəli gedib mənəviyyatda geri qalan insan son nəticədə irəli yox, geriyə gedir.**

*Aristotel,*
*Yunan filosofu*

## Bakı və Abşeron üzrə namaz vaxtları (avqust - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Dünyanın ən qədim çörəyi tapıldı

Dünyanın ən qədim çörəyi İordaniyanın "Qara səhra" adlanan ərazisində arxeoloji qazıntılar zamanı aşkarlanıb.

Bunadək ən qədim çörək bişirilmə yeri Türkiyənin Çatalhöyük arxeoloji mərkəzi sayılırdı və tarixi 9 min il əvvələ gedib çıxırdı.

İndi isə dünyanın ən qədim çörəyinin 14 min il öncə ərsəyə gəldiyi müəyyənləşib.

Hər birinin içində böyük dairə şəklində daş sobaların olduğu iki bina kəşf edən tədqiqatçılar həmin binalarda yanmış çörək qırıntıları tapıblar.

Mikroskopla baxıldıqda 5,7 millimetr uzunluğunda, 4,4 millimetr enində, 2,5 millimetr qalınlıqda çörək nümunələrində əzmə, ələmə, yoğurma kimi fəaliyyət izləri aşkarlanıb.

Mayasız bişirilən qədim çörəyi laboratoriya şəraitində yenidən istehsal etməyi sınayan tədqiqatçılar çörəyin dadının hazırda istehlak olunan çörəyə oxşadığını deyirlər.

# Uzun ömür sürməyin əsas sirri açıldı

Pəhriz və düzgün qidalanma çox vacibdir. Lakin uzun ömür sürmək üçün daha təsirli mexanizmlər mövcuddur.

Şərqi İngiltərə Universitetinin tədqiqatçıları araşdırmalar nəticəsində müəyyən ediblər ki, təbiət qoynunda gəzintilər və təmiz hava II tip şəkərli diabetə, ürək-damar xəstəliklərinə yoluxma təhlükəsini azaldır, qəfil ölüm riskini minimuma endirir.

Ümumilikdə 140 tədqiqata 20 ölkədən 290 milyon insan cəlb olunub.

Təbiət qoynuna daha yaxın yaşayan insanlarda bir çox tibbi göstəricilər, o cümlədən qan təzyiqi, ürək döyüntüləri və ürəyin ümumi durumu normaya yaxındır.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894